Xalqın qəzeti!

# Xalq qəzeti

№ 236 (30352) 28 oktyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycan təkcə Şərq–Qərb deyil, Şimal–Cənub dəhlizlərinin də kəsişməsində yerləşir. Bütün nəqliyyat imkanlarımız var, infrastruktur tam müasirləşdirilib. Yəni, potensial böyükdür. Bu imkanlara daha geniş baxılmalıdır.**

## Tarixi İpək yolu Orta Dəhlizə çevrilir

*Azərbaycan, Türkiyə və Gürcüstan bu marşrutun önəmli ölkələridir*



**Gürcüstanda 4-cü Tbilisi İpək Yolu Forumu keçirilib. Xatırladaq ki, bu mövzuda ilk toplantı Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Bakıda reallaşıb. Həmin vaxt tarixi İpək yolunun bərpası layihəsinə ilk qoşulan Gürcüstanın ovaxtkı prezidenti Eduard Şevardnadze, həmçinin digər 8 ölkənin dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyəti bu forumda iştirak edib. Konfransın yekununda Avropa İttifaqının (Aİ) TRACECA Proqramı əsasında "Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb.**



Bu məqamda onu da qeyd edək ki, 1998-ci ildə Bakıda keçirilən 1-ci İpək Yolu Forumunda qəbul olunan adıçəkilən Əsas Çoxtərəfli Sazişin müddəalarına əsaslanılaraq TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi və 2001-ci il fevralın 21-də rəsmi açılışı olması Azərbaycanın tarixi İpək yolunun bərpasına öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynayıb. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanması da prosesin sürətlənməsini şərtləndirib.

*(ardı 6-cı səhifədə)*

## Supergüclərin "sülh" savaşı

**Deyəsən, postmüharibə dövrünün reallığı özünün məntiqi finiş xəttinə yaxınlaşmaqdadır. Cənubi Qafqaz hazırda ilk növbədə beynəlxalq nəqliyyat-kommunikasiya xətlərinin önəmli qovşağına çevrilmək imkanları ilə dünyanın diqqət mərkəzindədir.**



Xüsusilə də, bölgənin Avropa və Asiya qitələrini birləşdirmək perspektivi, hər il əldə olunacaq böyük maliyyə dövriyyəsi ilə bağlı proqnozlar daha ucadan səslənməkdədir. Sahənin mütəxəssislərinin təxminlərinə görə, bu proqnozlar özündə yüz milyonlarla ABŞ dolları üzərindən aparılan maliyyə hesablamalarını ehtiva edir. Daha praqmatik ekspertlər isə iqtisadi-ticari tranşlardan hər il ortaya çıxacaq maliyyə dövriyyəsinin 500 milyardla bir trilyon dollar arasında dəyişə biləcəyini proqnozlaşdırırlar.

Göründüyü kimi, Cənubi Qafqaz hazırda dünya iqtisadiyyatının "ən yağlı və böyük pay"larından birinə çevrilmək perspektivini özündə birləşdirir. Bu baxımdan yaxın gələcəkdə regionun yüksək templərlə dəyişərək, yeni inkişaf mərhələsinə qədəm qoya biləcəyi nə yerli, nə də əcnəbi politoloqlarda şübhə doğurur. Sadəcə, Cənubi Qafqazın gözlənilən inkişaf perspektivinin qarşısındakı əsas əngəl Azərbaycanın tarixin arxivinə göndərdiyi "Qarabağ problemi"nin birdəfəlik aradan qaldırılmasıdır. İndi sülh bütün tərəflərə hava–su kimi lazımdır. Bundan ötrü rəsmi Bakı İrəvanla ikitərəfli, çoxtərəfli, istənilən formatlı dialoqa hazır olduğunu dəfələrlə bəyan edib.

*(ardı 3-cü səhifədə)*

**"Düzəlmişdi hər yarağı, qalmışdı saqqal darağı". Bu el misalını Ermənistana və onun havadarlarına tətbiq edərək, bir çox məsələlərdən söz açaq. Hələlik həmin məsələlərdən ən yenisinə diqqət yetirək. Bu dəfə söhbət Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin qəbul etdiyi deklarasiyadan – Ermənistan və dünya erməniliyi üçün növbəti saqqal darağından gedir.**

## Avropa Şurasındakı "konqres ermənipərəstliyi"




Erməniprəstliyin geniş vüsət aldığı hazırkı şəraitdə, nəhayət, belə bir qurumun olduğundan da xəbər tutduq. Çox güman, son vaxtlar erməni maraqlarını özlərinin qətnamə məntiqlərinə kökləyərək, ortaya qoyan Avropa Parlamentinin deputatları kimi, Avropa Şurasının sözügedən konqresində əyləşənlər də görünür ya korrupsionerdir, ya da... Hər halda avropalı ağıllarının başlarında olmadığı aşkardır.

Bəli, AŞ-nin Yerli və Regional Hakimiyyətlər Konqresi erməniprəstliyin dozasını o qədər çox edib ki, heyrətlənməyə bilmirsən. Sual yaranır: görəsən, qurumda oturanlar nə yeyir, nə içirlər ki belə qərəzə yol verirlər. Qərəzə yol vermələri bir yana, beynəlxalq hüququdamı saymırlar? Deyəsən, məsələ yeyib-içməkdən keçib. Hər halda erməni havadarlığına hədsiz "ahəng" qazandırmağın başqa cür təsvirini vermək sadəcə mümkünsüzdür.

*(ardı 4-cü səhifədə)*

## Dünya, deyəsən, kəsişməyəcək

**Ermənistan baş naziri Nikol Paşinyan Tbilisi Beynəlxalq İpək Yolu Forumunun açılış mərasimində çıxış edərkən, regional nəqliyyat dəhlizləri ilə bağlı xəritə təqdim edib. Baş nazir Ermənistanın şimalından və cənubundan keçən dəmir yolları ilə bağlı məlumat verib.**




Xəritədə, həmçinin Zəngəzur dəhlizi ilə Azərbaycanla dəmir yolu və avtomobil yollarının bərpasının mümkünlüyü və bunun Xəzər dənizi ilə Aralıq dənizi arasındakı nəqliyyat əlaqələrini daha da qısaldacağı qeyd edilib. Bu mənzərəyə diqqət yetirərkən, yada bir atalar sözü düşür: Avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Əlbəttə, məqsədimiz heç də Nikolun söylədiklərinin mənasızlığını vurğulamaq deyil. Şübhəsiz, məna var. Ancaq necə bir məna və o məna nə dərəcədə keçərlidir? Yazımızda bu barədə söz açacağıq.

Bəli, Paşinyanın danışdıqları əhəmiyyətsiz məsələlər deyil. Meydana iki sual çıxır. Birinicisi, o, nəyə görə bu barədə indi danışır? Halbuki Azərbaycan yolların açılması ilə region ölkələri arasında iqtisadi əlaqələrin güclənməsi təklifini lap əvvəldən irəli sürmüşdü. Ölkəmiz 44 günlük müharibədə qalib gəlməsinə baxmayaraq, məğlub Ermənistana əməkdaşlıq əlini uzatmışdı. Ancaq məlumdur ki, hər dəfə bu əl geri qaytarılmış və İrəvan Qarabağ avantürasının davamına siyasi sərmayə yatırmaqla məşğul olmuşdu...

Digər tərəfdən, əgər söhbət yolların açılmasından gedirsə, Ermənistan bununla bağlı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, üzərinə düşən heç bir öhdəliyi yerinə yetirməyib. Hətta bir daşı da daş üstə qoymayıb. Məsələnin təfərrüatlarına çox da diqqət yetirmədən ikinci sualımıza keçid alaq. Erməni baş nazir nəyə görə hazırda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası ilə bağlı danışır və məqsədi nədir?

*(ardı 3-cü səhifədə)*

## Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi başa çatsa da...

Səhifə ⇨ 4

## Milli birliyin ədəbi təcəssümü

Səhifə ⇨ 9

## Topxana – qəhrəmanlıq və təbiət abidəsi



Səhifə ⇨ 6

## "Abşeron" yatağı xaricdə böyük maraq doğurur



**"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin məlumatında "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğu və onun işə salınması ilə Dövlət Neft Şirkətinin (SOCAR) biznes profilinin yaxşılaşdığı bildirilir.**

Adıçəkilən reytinq agentliyi SOCAR və Fransanın "TotalEnergies" şirkətinin 2023-cü ilin iyul ayında "Abşeron" qaz-kondensat yatağında hasilatın başlandığını qeyd edir. Agentlik, eyni zamanda, SOCAR-ın bu il "Abşeron"-da 1,8 milyon barel neft və 707 milyon kubmetr təbii qaz hasil edəcəyini proqnozlaşdırır.

*(ardı 7-ci səhifədə)*

# Birləşmiş Ərəb Əmirlikləri ilə dostluq və əməkdaşlıq möhkəmlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.

Telefon danışığı əsnasında Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələr müzakirə edilib, xalqlarımızın mənafeyi naminə iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında investisiyalar, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Prezident İlham Əliyev ötən gün açılışı olan Qaradağ Günəş Elektrik Stansiyasının Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa olunmasının önəmini qeyd edib. Dövlətimizin başçısı 230 meqavat gücündə olan Qaradağ Günəş Elektrik Stansiyasının regionda ən böyük günəş elektrik stansiyası olduğunu, Azərbaycanda xarici sərmayə ilə tikilən ilk bərpaolunan enerji stansiyası olduğunu vurğulayıb. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin və geniş tərkibdə nümayəndə heyətinin bu tədbirdə iştirakının ölkələrimiz arasındakı dostluğun və tərəfdaşlığın nümunəsi olduğunu qeyd edib.

Azərbaycan Prezidenti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini ölkəsinin BMT-nin İqlim Dəyişikliyi Konfransına – COP-28-ə ev sahibliyi etməsi münasibətilə təbrik edib, bunu Birləşmiş Ərəb Əmirliklərinin Davamlı İnkişaf Məqsədlərinə nail olunması və ətraf mühitin qorunması ilə bağlı qlobal səylərə töhfəsinin nümunəsi kimi dəyərləndirib.

Dövlət başçıları iki ölkə arasında, eləcə də beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

**Prezidentin Mətbuat Xidməti**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327, № 6 (I kitab), maddə 570, № 8, maddə 920; 2022, № 5, maddə 445, № 6, maddə 597, № 8, maddə 839, № 10, maddə 1126; 2023, № 2, maddə 249, № 7, maddələr 952, 959) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5. Nazirliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.".

**2.** Aşağıdakı məzmunda 7.1-1-ci və 8.1-2-ci yarımbəndlər əlavə edilsin:

"7.1-1. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirir, tibbi xidmətlərin keyfiyyətinə nəzarəti təmin edir;";

"8.1-2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və tabeliyində olan tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini təsdiq etmək;".

**3.** 8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.3. səhiyyə sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında iştirak etmək və fəaliyyət istiqamətlərinə uyğun olaraq, həmin sənədlərlə bağlı aidiyyəti üzrə tədbirlərin həyata keçirilməsini təmin etmək;".

**4.** Aşağıdakı məzmunda 8.4-1 – 8.4-4-cü yarımbəndlər əlavə edilsin:

"8.4-1. təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi qaydasını və ixtisaslaşdırılmış tibbi yardımın növlərini, həcmini, keyfiyyət standartlarını və göstərilməsi qaydasını təsdiq etmək;

8.4-2. səhiyyə sistemi infrastrukturunun təşkili ilə bağlı planlaşdırmanı və proqnozlaşdırmanı aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;

8.4-3. tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və səhiyyənin təşkili üçün mütərəqqi forma və metodların tətbiqi məqsədilə araşdırmalar aparmaq və sınaqlar keçirmək, səhiyyə sahəsində müxtəlif maliyyələşmə modellərinin effektivliyinin təhlilini həyata keçirmək;

8.4-4. müvafiq sahədə əhalinin maarifləndirilməsi ilə bağlı tədbirlər görmək və bu tədbirlərin icrasının effektivliyinə nəzarəti təmin etmək;".

**5.** 8.11-ci yarımbənddə "tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin" sözləri "tədbirləri hazırlamaq və həyata keçirilməsinə nəzarət" sözləri ilə əvəz edilsin.

**6.** 8.13-cü yarımbəndə birinci halda "tibb" sözündən əvvəl "tibb müəssisələrini tibb təhsilli kadrlarla təmin etmək məqsədilə" sözləri əlavə edilsin və həmin yarımbənddən ", qurumlarını ixtisaslı kadrlarla təmin etmək" sözləri çıxarılsın.

**7.** 8.13-2-ci yarımbənddə "qanunvericiliyə uyğun olaraq həkimlərin və əczaçıların" sözləri "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, həkimlərin, əczaçıların və orta tibb və ya əczaçılıq təhsili olan şəxslərin (işçilərin)" sözləri ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 8.13-4-cü və 8.13-5-ci yarımbəndlər əlavə edilsin:

"8.13-4. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə digər qaydalar nəzərdə tutulmadıqda, xarici ölkələrdə tibb və ya əczaçılıq təhsili almış şəxsləri, xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması qaydasına uyğun olaraq, ölkə ərazisində tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxmaq;

8.13-5. ali və orta ixtisas tibb təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə qəbul barədə təkliflər vermək;".

**9.** 8.15-ci yarımbəndə "görmək" sözündən sonra ", o cümlədən tabeliyində olan tibb müəssisələrinin dayanıqlı inkişafı üçün təhlillər aparmaq və təkliflər hazırlamaq" sözləri əlavə edilsin.

**10.** Aşağıdakı məzmunda 8.15-1-ci yarımbənd əlavə edilsin:

"8.15-1. səhiyyə sistemində idarəetmənin təkmilləşdirilməsi, islahatlar aparılması, tibb müəssisələrinin maliyyələşməsi və xərclərinin idarə edilməsi məqsədilə mütərəqqi və effektiv beynəlxalq təcrübənin tətbiqi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;".

**11.** 8.18-ci yarımbəndə "qurumlarında" sözündən əvvəl "Nazirliyin Aparatında," sözləri əlavə edilsin.

**12.** Aşağıdakı məzmunda 8.27-1-ci, 8.27-2-ci və 9.1-1-ci yarımbəndlər əlavə edilsin:

"8.27-1. səhiyyə sahəsində rəqəmsallaşdırmanı aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə tətbiq etmək;

8.27-2. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrini aparmaq;";

"9.1-1. tibbi sığorta ilə bağlı təkliflər vermək;".

**13.** 9.5-ci yarımbənddə "dövlət məhkəmə ekspertizası fəaliyyətini" sözləri "məhkəmə-tibbi ekspertizasını" sözləri ilə əvəz edilsin.

**14.** 9.6-cı yarımbənddən ", müvafiq sahədə təşviqat və maarifləndirmə işlərini həyata keçirmək" sözləri çıxarılsın.

**15.** 13-cü bəndin birinci abzasında "birinci müavini və dörd" sözləri "üç" sözü ilə əvəz edilsin.

**16.** Aşağıdakı məzmunda 14.1-1-ci və 14.1-2-ci yarımbəndlər əlavə edilsin:

"14.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

14.1-2. Nazirliyin Aparatının struktur bölmələrinin əsasnamələrinin, tabeliyindəki qurumların (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 17-1-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;".

**17.** 14.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"14.2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin tabeliyindəki qurumların nizamnamələrini təsdiq olunmaq üçün təqdim edir;".

**18.** Aşağıdakı məzmunda 14.3-2-ci, 14.3-3-cü yarımbəndlər və 17-1-ci bənd əlavə edilsin:

"14.3-2. Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

14.3-3. Elmi-Tibbi Şuranın, Farmakoloji və Farmakopeya Ekspert Şurasının və Apellyasiya Şurasının sədrlərini, Şura sədrlərinin təqdimatı (təklifi) əsasında onların digər üzvlərini, o cümlədən Apellyasiya Şurası Katibliyinin rəhbərini və tərkibini təsdiq edir;";

"17-1. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

17-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

17-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

17-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

17-1.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

17-1.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.1-2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

17-1.6. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.".

**19.** 19-cu bənd ləğv edilsin.

**20.** 22-ci bəndin birinci cümləsində üçüncü halda "və" sözü vergül işarəsi ilə əvəz edilsin, həmin cümləyə "Şurası" sözündən sonra "və sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun tabeliyindəki qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalar istisna olmaqla) təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxmaq məqsədilə Nazirlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317; 2020, № 6, maddə 690, № 7, maddə 881, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddə 567, № 11, maddə 1219; 2023, № 7, maddə 949) 2-ci hissəsinin beşinci abzasında "34-cü maddəsinin ikinci" sözləri "34-cü maddəsinin üçüncü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## A.B.Məmmədovun Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Arif Baloğlan oğlu Məmmədov Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## V.H.Abdullayevin Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Hacımahmud oğlu Abdullayev Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## A.B.Məmmədovun Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Arif Baloğlan oğlu Məmmədov Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2023-cü il**

## Azərbaycan – Türkiyə qardaşlığının dünyada oxşarı yoxdur



**Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyətinin Türkiyəyə rəsmi səfəri çərçivəsində Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşüblər.**

Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurlu inkişafından danışaraq, əlaqələrimizin gücləndirilməsində hər iki ölkənin dövlət başçılarının xüsusi rolunu qeyd edib. O, ölkələrimizin parlamentləri arasında da möhkəm əməkdaşlığın mövcud olduğunu deyərək, qarşılıqlı səfərlərin, keçirilən görüşlərin bu əlaqələrin möhkəmləndirilməsi baxımından vacibliyini vurğulayıb.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov da ölkələrimiz arasında münasibətlərin Prezident İlham Əliyevin ifadə etdiyi kimi, dünyada oxşarı olmadığını söyləyib. Qeyd edib ki, qardaşlıq və dostluq münasibətlərimiz günbəgün möhkəmlənir və genişlənir. O, həmçinin qanunverici orqanlarımızın da ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə özünəməxsus töhfələr verdiyini qeyd edərək, bu istiqamətdə görülən işlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

***Ə.BƏDƏLOV***
***XQ***

# Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi başa çatsa da...

## Rəsmi Bakı daha 3 il qurumun “sədrlik üçlüyü”ndə yer alacaq



**Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin – sonradan artırılmış bir il də daxil olmaqla dörd ili tamam olur. Xəbər verildiyi kimi, gələn il yanvarın 15 – 20-də Uqandanın Kampala şəhərində keçiriləcək Qoşulmama Hərəkatının XIX Zirvə görüşü ilə QH-yə sədrlik Azərbaycandan Uqandaya keçəcək. Ancaq bizim üçün daha maraqlı olan məqam ondan ibarətdir ki, ölkəmiz bu qurumda yenə də mühüm söz sahibi olacaq. Belə ki, rəsmi Bakı növbəti 3 il müddətində Qoşulmama Hərəkatının “sədrlik üçlüyü”ndə yer alacaq.**

Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı məlumatda belə bir əminlik ifadə olunur ki, ölkəmiz üçlüyün üzvü qismində də QH-nin beynəlxalq nüfuz və mövqelərinin gücləndirilməsi istiqamətində öz səylərini əsirgəməyəcək.

Ekspertlərin fikrincə, “QH-nin nüfuz və mövqelərinin gücləndirilməsi” deyəndə Azərbaycanın bu quruma sədrlik etdiyi son 4 ildə həyata keçirilən çoxsaylı tədbirlər nəzərdə tutulur. Məhz həmin tədbirlər nəticəsində Qoşulmama Hərəkatı bu gün dünyanın aparıcı beynəlxalq təşkilatlarından birinə çevrilib.

Xatırladaq ki, Azərbaycan 2019-cu il oktyabrın 25-də Qoşulmama Hərəkatının XVIII sammitində təşkilatın sədri seçilmişdi. Dövlət başçımız həmin sammitdə bəyan etmişdi ki, təşkilata sədrlik etdiyi dövrdə “Bandunq prinsiplərini” əsas götürəcək və beynəlxalq tədbirlərdə təşkilatı təmsil edəcək. Bandunq prinsipləri ərazi bütövlüyü və insan azadlıqlarına hörmət, ölkələrin daxili işlərinə qarışmaqdan, böyük dövlətlərə yersiz yarınmaqdan çəkinmək, mübahisələrin sülh yolu ilə həllinə çalışmaq və qarşılıqlı əməkdaşlığa təşviq etmək məramıdır.

Təşkilata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfransda qəbul edilib. Göründüyü kimi, bu prinsiplərin hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissələri ilə üst-üstə düşür.

Qoşulmama Hərəkatı “soyuq müharibə” dövründə bir sıra dövlətlərin iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün təsis olunub. Hazırda təşkilatın 120 üzvü var. Orada, eyni zamanda, 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilat da var. Qurumda idarəçilik rotasiya əsasında dəyişir. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etməkdir.

Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. Təşkilatın daimi orqanı və mənzil–qərargahı yoxdur. QH BMT-nin Mənzil–Qərargahında yerləşən əlaqələndirici büro (ƏB) vasitəsilə təşkilatın sədri və üzv dövlətlərin nümayəndəlikləri tərəfindən idarə olunur.

Büro QH-nin daimi əsasda fəaliyyət göstərən və təşkilatdaxili əlaqələndirmə işlərini tənzimləyən əsas orqanıdır. Büro vasitəsilə Qoşulmama Hərəkatı öz üzvlərinin BMT orqanlarında vahid mövqedən çıxış etməsini əlaqələndirir, BMT yanında daimi nümayəndəliyi vasitəsilə QH-nin Bürosuna rəhbərliyi və sədrliklə bağlı digər vəzifələri icra edir. Qoşulmama Hərəkatının bilavasitə münaqişələrə müdaxilə edəcək resurs və alətləri yoxdur. Bu qurum, sadəcə, beynəlxalq məsələlərin müzakirəsi üçün bir platformadır.

Onu da əlavə edək ki, Azərbaycan təşkilata qoşulan sonuncu ölkədir. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, Qoşulmama Hərəkatının sammitlərində 2 dəfə – 2012-ci ilin mayında və avqustunda yekun sənədlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş maddə qəbul edilib. Həmin sənədlərdə qeyd olunmuşdu ki, adıçəkilən münaqişə məhz Azərbaycan Respublikasının “ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində” həll edilməlidir.

***

Xarici İşlər Nazirliyinin hesabatında göstərilir ki, ölkəmizin sədrliyi dövründə əldə edilən uğurlar bütün üzv dövlətlər tərəfindən təqdir edilib və Azərbaycanın QH-yə 3 il müddətinə nəzərdə tutulan sədrliyi yekdilliklə əlavə 1 il müddətinə artırılıb. Sədrlik dövründə Azərbaycan QH-nin beynəlxalq münasibətlər sistemindəki əvvəlki nüfuzunu bərpa etməyə yönəlmiş və heç bir beynəlxalq aktorla ziddiyyətə getmədən “Bandunq prinsipləri”nin təşviqinə köklənmiş siyasət sərgiləyib: “Sədrliyin böyük bir hissəsinin COVID-19 pandemiyasının yayılmasının intensiv dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüslər sayəsində mövcud çağırışlar yeni əməkdaşlıq imkanlarına çevrilib. Burada, xüsusilə inkişaf etmiş ölkələrin “peyvənd millətçiliyi siyasəti” və inkişaf etməkdə olan ölkələrə qarşı ədalətsiz və biganə yanaşmasına son qoyulması üçün BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında ölkəmiz tərəfindən mühüm qətnamələrin irəli sürülərək qəbul etdirilməsini qeyd etmək olar”.

O da əlavə olunur ki, sədrliyin geridə qalan 4 ili ərzində Azərbaycan, həmçinin qurumun təsisatlandırılması istiqamətində mühüm addımlar ataraq, ölkə başçısının təşəbbüslərinə uyğun olaraq, Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi və Gənclər Təşkilatını yaradıb: “Hazırda QH-nin Qadın və Media platformalarının yaradılması istiqamətində müvafiq tədbirlər görülür. Sədrliyimiz dövründə, həmçinin Qoşulmama Hərəkatına üzv dövlətlərin beyin mərkəzlərinin ilk iclası keçirilib, onların şəbəkələşməsi istiqamətində ilk addımlar atılıb”.

***

Beynəlxalq münasibətlər sistemində ədalətin bərqərar olmasının ən güclü təşviqatçılarından biri olan Qoşulmama Hərəkatı respublikanın sədrliyi dövründə də öz üzv dövlətlərinə, o cümlədən, Azərbaycana qarşı yönəlmiş ədalətsizliklərə biganə qalmayıb, xüsusilə, Vətən müharibəsi dövründə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş təcavüzü pisləyərək, bu istiqamətdə BMT çərçivəsində irəli sürülən təxribatçı addımların qarşısını alıb.

Elə bu qeydləri də Azərbaycan Prezidentinin həmin məsələyə münasibət bildirərkən söylədiyi fikirlərlə yekunlaşdırmaq istəyirik. Dövlət başçımız bu il iyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının əlaqələndirmə bürosunun “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündəki çıxışında demişdir:

“Fürsətdən istifadə edərək, işğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edirəm”.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Ermənistan döyüş poliqonuna çevrilə bilər

## Hindistanın haylara silah tədarükü Nehrunun ruhunu incitməkdir

**Cənubi Qafqazdan min kilometrlərlə uzaqda yerləşən bəzi ölkələr hər vəchlə bölgədə sülhün yaranmasına imkan vermirlər. Həmin ölkələr 30 ildən artıq dövrdə regionda əsas gərginlik mənbəyi olan Ermənistanı dəstəkləmək işindən bu gün də əl çəkmirlər. Bununla onlar 44 günlük Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan İrəvanı revanşizmə sürükləyirlər. Belə ölkələrdən biri Fransadırsa, digəri Hindistandır.**

Qeyd edək ki, Azərbaycanla Hindistan arasında tarixən yaxşı münasibətlər olub. Hindistanlı zəvvarlar uzun əsrlər boyu Suraxanıda yerləşən atəşpərəstlik məbədinə ziyarətə gəliblər. Buranı özlərinə müqəddəs məkan, doğma ocaq biliblər. Əlaqələr Azərbaycanın çar Rusiyasının, Hindistanın isə Britaniya imperiyasının tərkibində olduğu dövrdə də davam edib.

Ötən əsrin əvvəllərində azərbaycanlı neft maqnatı, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təbii fəlakətdən əziyyət çəkən Hindistan müsəlmanlarına yardım etdiyinə dair faktlar var. Sovet İttifaqı dövründə isə Azərbaycanla Hindistan arasında yüksək səviyyəli mədəni əlaqələr mövcud olub. Azərbaycanın mədəniyyət xadimləri Hindistan şəhərlərində qastrollarda olub, geniş konsert proqramı ilə çıxış ediblər.



1947-ci ildə Britaniya Hindistanı adlanan çox geniş əraziyə və böyük əhaliyə malik müstəmləkə torpağı müstəqillik qazanıb. Onun yerində iki müstəqil dövlət – Hindistan və Pakistan yaranıb. Yeri gəlmişkən qeyd edək ki, sonralar (1971-ci ildə) benqallar da Hindistandan ayrılaraq, müstəqil Banqladeş dövlətini qurublar. “Soyuq müharibə” dövründə – dünyada iki qütb arasında kəskin qarşıdurmanın mövcud olduğu onilliklər ərzində Hindistan müstəqil siyasət yürüdüb. Nə nüvəsində ABŞ-ın dayandığı NATO-ya, nə də SSRİ-nin qurub yaratdığı Varşava Müqaviləsi Təşkilatına qoşulub. Ölkənin ilk Baş naziri Cəvahirləl Nehrunun xarici siyasətdə neytral mövqe tutması özünü Qoşulmama Hərəkatının yaradılmasında göstərib. O, Misir Prezidenti Camal Əbdül Nasir və Yuqoslaviya Prezidenti İosip Broz Tito ilə birlikdə Qoşulmama Hərəkatının yaradılmasından əvvəl keçirilən üçtərəfli məsləhətləşmələrdə iştirak edib. 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfransda məşhur “Bandunq prinsipləri” qəbul olunub. Həmin prinsiplərə dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət, digər dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina, BMT Nizamnaməsinə uyğun olaraq, bütün beynəlxalq mübahisələri dinc, sülh yolu ilə həll etmək, qarşılıqlı maraq və əməkdaşlığın təşviq olunması, ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək kimi ümumbəşəri dəyərlər daxildir. Bu mənada Hindistanın Azərbaycan torpaqlarını 30 ildən çox işğal altında saxlayan Ermənistanı dəstəkləməsi, ona silah-sursat satması təkcə üzvü olduğu Qoşulmama Hərəkatının “Bandunq prinsipləri”nə qarşı çıxmaq deyil, həm də dünyanın ən görkəmli siyasi xadimlərindən olan Cəvahirləl Nehrunun ruhunu incitməkdir.

***

Bugünlərdə Hindistanın “The Economic Times” qəzetinin yaydığı məlumatda Nyu Dehlinin imzalanmış müqavilələr çərçivəsində silah-sursatın növbəti partiyasını Ermənistana çatdırmaq imkanlarını nəzərdən keçirdiyi bildirilib. Qəzet mənbələrə istinadən yaydığı məlumatda qeyd edib ki, Ermənistanın yüksək rütbəli nümayəndəsi Nyu Dehlidə iki ölkə arasında 2022-ci ilin sentyabrında imzalanmış müqavilələr əsasında həyata keçiriləcək silah tədarükü ilə bağlı danışıqlar aparıb. Məlumata görə, müqavilələrin dəyəri 20 milyard rupi (244,7 milyon dollar) təşkil edir.

Qeyd edək ki, müqaviləyə uyğun olaraq, Hindistan ötən il Ermənistana xaricə ilk dəfə satılan “Pinaka” reaktiv yaylım atəşi sistemləri, “Svati” adlanan radarlar, həmçinin tank əleyhinə raketlər verib. Silahlar İran ərazisindən keçən nəqliyyat dəhlizi vasitəsilə çatdırılıb.

Hindistanın Ermənistanı silahlandırması Azərbaycanda haqlı etiraz doğurur. Dövlətimizin rəsmi şəxsləri bu istiqamətdə etirazlarını vaxtaşırı Nyu Dehliyə çatdırırlar. Cari ilin mayın 19-da Hindistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edən Prezident İlham Əliyev deyib ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən Prezident İlham Əliyev qeyd edib ki, əgər, doğrudan da, İrəvan Azərbaycanla sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır? Azərbaycan Prezidenti vurğulayıb ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Ermənistan Vətən müharibəsi zamanı böyük zərbə alaraq, sarsıdıcı məğlubiyyətə uğrayıb. Hərbi texnikasının böyük hissəsini itirib, şəxsi heyətdən də xeyli itkiləri olub. İndi isə İrəvan bunların yerini doldurmağa çalışır. Ermənistanın müxtəlif ölkələrdən silah-sursat alması xoşagəlməz hal olsa da, bu alqı-satqı çətin ki, Azərbaycanla hərbi paritet yarada bilsin. Elə sadə ermənilər də bu fikirdədirlər. Rusiyalı jurnalist Aleksey Pivovarovun “YouTube”dakı “Redaksiya” kanalında Ermənistanda baş verən proseslərlə bağlı reportajında İrəvan sakini Qor Sarkisyan deyib: “Azərbaycan Türkiyədən, İsraildən ən müasir silahlar alır. Rusiya da Azərbaycanın silah aldığı ölkələr sırasındadır. Bundan əlavə, Bakı Pakistanla hərbi sahədə əməkdaşlıq edir. Ermənistan isə 5 ildə Hindistandan cəmi 18 ədəd “Haubitsa (artilleriya silahı növü) və “Qrad” tipli artilleriya silahı alıb. Mən hesab edirəm ki, bu, doğru deyil”.



**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov da “Xalq qəzeti”nə açıqlamasında bildirib ki, hələlik silahlar Ermənistana göndərilməyib:** “Bu, sadəcə sazişdir. Mən düşünmürəm ki, Ermənistanın o qədər silah-sursat almaq imkanı olsun. Ola bilsin ki, maraqlı qüvvələr məhz Hindistan silah bazarından istifadə edərək, Ermənistanı silahlandırmaq istəyirlər”.

Şair Ramaldanov qeyd edib ki, ümumiyyətlə, Ermənistanı silahlandırmaq istəyən dövlətlərin əsas məqsədi Cənubi Qafqazda münaqişə ocağını sönməyə qoymamaqdır: “Silahlandırmanın məqsədi budur. Silahlandıran qüvvələr də yəqin ki, sonra silahlarla bağlı tələblərini, tapşırıqlarını qoyacaqlar. Sonra isə ermənilər həmişə olduğu kimi xarici qüvvələrin əlində alət olaraq yenə də Cənubi Qafqazda gərginlik yaratmağa çalışacaqlar. Mənim mövqeyim bütün sülhsevər insanların mövqeyi kimi mənfidir. Ermənistan həmişə belə siyasət yürüdüb və zənnimcə, belə də qalacaq”.

Ancaq hərbi ekspert bildirib ki, Prezident İlham Əliyevin də çıxışlarında qeyd etdiyi kimi, Ermənistan öz revanşist ideyalarından əl çəkməsə, Azərbaycanın “dəmir yumruğu” yenə də onların başını əzməkdə davam edəcək.

***Səxavət HƏMİD***
***XQ***

**Siyasi replika**

# Avropa Şurasındakı “konqres ermənipərəstliyi”

## yaxud “qoca qitə” üçün qorxunc presedentə doğru

**(əvvəli 1-ci səhifədə)**

Əlqərəz, AŞ konqresinin deklarasiyasında nələrin əksini tapdığına diqqət yetirək. Birincisi, sənəddə Azərbaycanın bu il sentyabrın 19-da başladığı və 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri pislənilib. Sən demə, ölkəmizin öz Konstitusiya quruluşunun bərpası üçün istifadə etdiyi yol düzgün deyilmiş.

Qeyd edək ki, belə bir yaramaz ritorikaya son zamanlar çox rast gəlməkdəyik. Görünür, növbə AŞ konqresinə də çatıb. Qurum, belə demək mümkünsə, ermənipərəstlik trendinə qoşulub. Böyük ehtimalla orada təmsil olunanların Azərbaycanın da Avropa Şurasının üzvü olduğundan və təşkilatın vaxtilə ölkəmizin torpaqlarının işğal olunduğunu vurğulayan, separatçılığın yolverilməzliyini əsaslandıran sənədlərindən xəbərləri qətiyyən yoxdur. Hazırkı hədsizlikləri başqa cür düşünməyə əsas vermir. İstər-istəməz yada erməni lobbi və diaspor təşkilatlarının səpələdikləri pullar, bəxşişlər düşür...

Deklarasiyadakı ikinci məqam da elə birincinin davamıdır. Məsələ barədə söz açmazdan əvvəl bildirək ki, Ermənistan hakimiyyəti və onun xaricdəki havadarları özlərinin anti-Azərbaycan ritorikasına Qarabağda humanitar böhran şousunu çoxdan əlavə ediblər. Lokal xarakterli antiterror tədbirlərinədək məsələ daha çox “gündəmdə” idi. Maraqlıdır ki, AŞ-nin sözügedən qurumu da böhran şousunu qabartmaqdadır. Belə çıxır ki, ölkəmizin Qarabağda suverenliyini bərpa etmək məqsədilə gerçəkləşdirdiyi tədbirlər kəskin humanitar nəticələr doğurubmuş (?).

Üçüncü məqama keçid alaq. Hesab edirik ki, bu bölümdə səslənmiş çağırış deklarasiyanın bir növ kulminasiya nöqtəsidir. Bəli, avropalı konqresmenlər Azərbaycanı “Dağlıq Qarabağın nümayəndələri” kimi qiymətləndirdikləri separatçıları azadlığa buraxmağa çağırırlar. Deməli, belə çıxır ki, artıq canını tapşırmış separatçı rejimin sabiq rəhbərlərindən olan Arayik Arutyunyanın Gəncədə onlarca dinc sakinin həyatını itirməsinə səbəb olmuş raket hücumu ilə öyündüyü videomüraciətinə əhəmiyyət verməyək... Digər separatçıbaşılarının Azərbaycan əleyhinə cinayətlərini görməzdən gələk! Onların Birinci Qarabağ müharibəsi zamanı törətdikləri hərbi cinayətlərin üzərindən keçək! Bəlkə Xocalı və Malıbəyli qatillərinə qarşı humanist davranaq?! Görəsən, başqa istək və arzuları varmı? Utanmayıb desinlər. Onsuz da utanan sifətlərinin yerini simasızlıq tutub ki, bu barədə yazımızın sonunda söz açacağıq. İndi isə...

Keçək növbəti məqama. AŞ-nin Yerli və Regional Hakimiyyətlər Konqresinin deklarasiyasında Ermənistanın Cənubi Qafqazda sülhyaratma səyləri alqışlanıb. Bu alqışlanma da “sifarişdən” irəli gəlməkdədir. Həmişəki kimi İrəvanın məzlum obrazı yaradılmaqdadır. Deməli, bölgədə sülh istəyən ancaq Ermənistan imiş! Axı, ölkənin sülh yolunda hansı təşəbbüsləri olub? Görünür, avropalılar baş nazir Nikol Paşinyanın Avropa Parlamentindəki çıxışını əllərində yaylıq dinləyiblər. Ola bilər, Nikol əvvəlcədən onlara erməni konyakı da paylayıb ki, içib sentimental “zəngulələr” vursunlar. Avropa təşkilatlarındakı “pensionerlər klubları”nın təmsilçilərindən nə desən gözləmək mümkündür. Heç şübhəsiz, konqres də həmin klublardan biridir. Belə getsə, Nikol Paşinyanı Nobel sülh mükafatına da namizəd qismində təqdim edə, hələ ondan Nelson Mandella düzəldə də bilərlər. Beynəlxalq hüququ, haqqı və ədaləti neynirlər, əsas populizm olsun...

AŞ-nin Yerli və Regional Hakimiyyətlər Konqresinin deklarasiya kimi təqdim olunmuş lakmus kağızının Azərbaycana qarşı qərəz məntiqi ilə bağlı bir çox başqa məqamlardan da söz açmaq mümkündür. Elə bu qurumun adına nəzərən onun, ümumiyyətlə, belə sənədlər qəbul etmək səlahiyyətinin olmadığını diqqətə çatdırmaq da həmçinin. Amma məsələ barədə danışmağa ehtiyac duymuruq. Çünki ermənipərəstlik Avropa təsisatlarının gözünü tutub, necə deyərlər, at izi it izinə qarışıb. Buna görə sonda söz açmağı vəd etdiyimiz məqama keçid alaq.

***

Bəli, Avropanın bu sayaq institutları aşkar ermənipərəst mövqe tutmaqla, beynəlxalq hüquq prinsiplərini saymazdan gəlməklə, separatçılığa leqal libas geydirmək cəhdləri ilə nəinki “qoca qitə”, ümumilkdə dünya üçün son dərəcə qorxunc presedentin formalaşmasına zəmin yaradırlar. Əlbəttə, ermənipərəstlik sevdaları güclü olduğundan, erməni lobbi və diaspor təşkilatlarının ənam və bəxşişlərinin çoxluğundan, məsələnin fərqində deyillər. Fərqində deyillər ki, Avropanın özü də separatçılıq üçün zəmin verən kifayət qədər münbit platformadır. Bu baxımdan qitənin ayrı-ayrı bölgələrindəki təfriqə ocaqlarından söz açmaq mümkündür. İspaniyadan tutmuş İrlandiyaya qədər mübahisəli yerlərin sayı yetərincədir və ani siyasi kataklizmlər nəticəsində həmin yerlərin münaqişə ocağına çevrilməsi labüddür. Görəsən, Avropada bunu düşünən beyinlər varmı və ya qalıbmı? Təəssüf ki, ilk baxışdakı mənzərə bunun əksini deyir. Əksini deyir ki, bir ovuc erməninin əlində əsir-yesir qalıb simasızlaşanlar və sifətini itirmiş siyasi manqurt sürüsü öndə gedir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Əli Əsədov Ulu öndərin abidəsini ziyarət edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidəki Heydər Əliyev parkında Ulu öndərin abidəsini ziyarət edib.**





Hökumət başçısı Ümummilli liderin büstü önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

**XQ**

# Tbilisidə Azərbaycan Teatrı binasının təməli qoyulub

**Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 27-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması mərasimində iştirak ediblər.**




Təməlqoyma mərasimində çıxış edən Baş nazir Əli Əsədov Azərbaycan və gürcü xalqlarının əsrlər boyu dostluq, mehriban qonşuluq, sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını şərtləndirən əsas amilin tarixi köklərə söykənən mədəni əlaqələr olduğunu vurğulayıb. Bildirib ki, həm Azərbaycanda, həm də Gürcüstanda tarixən xalqlarımızın milli-mənəvi dəyərlərinə, mədəniyyətinə, dilinə, dininə, incəsənətinə, ədəbiyyatına böyük hörmət və xüsusi rəğbət bəslənilib. Azərbaycanın bir çox görkəmli xadimləri, böyük şəxsiyyətləri – Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Fətəli xan Xoyski Gürcüstanda yaşayıb-yaratmış, əbədiyyətə qovuşmuşlar. Eynilə Gürcüstanın bir çox mədəniyyət və incəsənət xadimləri, görkəmli şəxsiyyətləri Azərbaycanda fəaliyyət göstərmiş, ictimai və mədəni həyatımıza mühüm töhfələr vermişlər.

1872-ci ildə Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının fəaliyyətə başlamasını ölkələrimiz arasında əsrlərə dayanan mədəni əlaqələrin daha bir göstəricisi olduğunu vurğulayan Baş nazir deyib: “Teatrın uzunmüddətli fəaliyyəti dövründə gürcü, Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin ölməz əsərləri böyük uğurla səhnələşdirilib. Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrına müasir tərzdə yeni nəfəs verilməsi tarixi hadisədir. Teatrın yeni binasının Tbilisi şəhərinin önəmli gözəl guşəsində yerləşməsi ilə bağlı qərarı çox yüksək qiymətləndiririk”.

Ulu öndər Heydər Əliyevin Gürcüstana isti münasibətindən danışan Əli Əsədov bildirib: “Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə həmişə qonşu dövlətlərə dost münasibəti göstərib. O ki qaldı Gürcüstan, bu, bir xüsusi haldır. Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə Gürcüstana və gürcü xalqına böyük hörmət bəsləmiş, xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Dəfələrlə Gürcüstanda səfərdə olmuş Heydər Əliyevin Gürcüstanın ovaxtkı rəhbəri mərhum Eduard Şevardnadze ilə qarşılıqlı etimada əsaslanan möhkəm dostluq münasibətlərini hamımız yaxşı xatırlayırıq. Məhz onların liderliyi sayəsində ölkələrimizin siyasi, iqtisadi, mədəni-humanitar və bütün digər sahələrdə münasibətlərinin inkişafının möhkəm təməlləri qoyulmuşdur. Hər iki liderin siyasi karyerası unikallığı ilə seçilirdi və oxşar tarixi hadisələrlə yadda qalmışdır. Belə ki, onlar ikinci dəfə öz xalqlarının tələbi ilə artıq müstəqil dövlətin rəhbəri kimi siyasi fəaliyyətlərini davam etdirmişlər. Ölkələrinə rəhbərlik dövründə digər sahələrlə bərabər onlar öz xalqlarının milli-mənəvi dəyərlərinə, dilinə, dininə, mədəniyyətinə, incəsənətinə, musiqisinə xüsusi diqqət, qayğı və həssaslıqla yanaşmış, bu irsin qorunması və inkişaf etdirilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Onu da xüsusi qeyd edim ki, Heydər Əliyev gürcü incəsənətinin, ədəbiyyatının, musiqisinin, kinosunun böyük pərəstişkarı idi”.

Müasir dövrdə Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin bizə miras qalan zəngin tarixi ənənələri yaşatdıqlarını, demokratiya yolu ilə inkişaf edən müstəqil dövlətlərimizin milli maraqlarını qoruyaraq, onları daha böyük nailiyyətlərə doğru apardıqlarını vurğulayan Baş nazir təməli qoyulan teatrın peşəkar kollektivinin burada yaradılacaq gözəl şəraitdən layiqincə istifadə edəcək, yeni layihələrlə və tamaşalarla Tbilisinin mədəni həyatında fəal rol oynayacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, bu, Azərbaycan–Gürcüstan mehriban qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcək.

“Əminəm ki, bu teatr mədəniyyət və incəsənətsevərlərə layiqli hədiyyə olmaqla yanaşı, həm də tarixi, qədimliyi və müasirliyi özündə mükəmməl şəkildə sintez edən Tbilisi şəhərinin görkəminə xüsusi gözəllik verəcək və Gürcüstan paytaxtının mədəni ocağına çevriləcək. Əlamətdar haldır ki, Heydər Əliyevin adını daşıyan bu mədəniyyət ocağının yeni binasının təməlqoyması məhz cari ilə – Azərbaycan xalqının Ümummilli liderinin anadan olmasının 100-cü ildönümünə təsadüf edir. Heydər Əliyevin bu mötəbər yubileyi münasibətilə Gürcüstanda da silsilə tədbirlər keçirilmişdir. Ulu öndərin əziz xatirəsinə göstərilən hörmət və ehtirama görə öz adımdan, Azərbaycan hökuməti və xalqı adından hörmətli cənab Baş nazir İrakli Qaribaşviliyə, Gürcüstan hökumətinə və xalqına təşəkkürümü ifadə edirəm”, – deyə Baş nazir Əli Əsədov xüsusi vurğulayıb.

Azərbaycanda da hər zaman olduğu kimi, Gürcüstanın görkəmli şəxsiyyətlərinin xatirəsinə böyük hörmət və ehtiramla yanaşıldığını qeyd edən Baş nazir bu günlərdə Gəncədə görkəmli gürcü şairi Nikoloz Barataşvilinin bir zamanlar yaşayıb-yaratdığı və çalışdığı binanın önünə xatirə lövhəsinin vurulduğunu, Qax rayonunda fəaliyyət göstərən Gürcü Dövlət Dram Teatrına böyük gürcü ədibi İlya Çavçavadzenin adının verildiyini xatırladıb.

Baş nazir İrakli Qaribaşvili bildirib ki, Gürcüstanda Azərbaycan teatrının böyük tarixi var. Gürcüstanda ilk Azərbaycan teatrı 1872-ci ildə yaradılıb. O, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adını daşıyan Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının müasir üslubda yeni binasının təməlinin qoyulmasının əhəmiyyətini xüsusi vurğulayaraq qeyd edib: “Bu gün hamımız sevinirik ki, teatrın yeni, müasir binasının təməli qoyulacaq və tezliklə daha əzəmətli bina tikiləcək. Bununla da paytaxtımızın mədəni həyatına daha bir əlamətdar məkan əlavə olunacaq. Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması Gürcüstan və Azərbaycan arasında möhkəm dostluğun və əməkdaşlığın sübutudur”.

Prezident İlham Əliyevin bir neçə gün əvvəl Gürcüstana səfərini xatırladan Baş nazir deyib: “Bu səfər çərçivəsində çox səmərəli görüşümüz və müzakirələrimiz oldu. Biz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgini birlikdə ziyarət etdik. Bu il Azərbaycanda Heydər Əliyevin 100 illik yubileyi qeyd olunur. Məhz bu çərçivədə biz bu gün Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlini qoyuruq. Mən Baş nazir Əli Əsədova da təşəkkür etmək istəyirəm. Tbilisiyə gəldiyiniz və 4-cü İpək Yolu Beynəlxalq Forumunda iştirak etdiyiniz üçün minnətdaram. Biz bunu çox yüksək qiymətləndiririk”.

**XQ**

# Hikmət Hacıyev mükafatlandırıldı

**Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevi II dərəcəli “Dostık” (Dostluq) ordeni ilə təltif edib.**

Yüksək mükafatı H.Hacıyevə Prezident K.Tokayevin adından və tapşırığına əsasən, Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel təqdim edib.

Diplomat bildirib ki, H.Hacıyev Qazaxıstanla Azaərbaycan arasında mehriban qonşuluq əlaqələrinin inkişafına, iki ölkə arasında strateji və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə verdiyi töhfələrə görə ordenlə mükafatlandırılıb.

**XQ**

# DİN asayişin və qanunçuluğun keşiyində

**DİN-in mətbuat xidməti bildirir ki, oktyabrın 27-də Daxili İşlər Nazirliyində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin, şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə, eləcə də cari ilin 9 ayının yekunlarının müzakirəsinə həsr olunmuş onlayn formatda kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaş məmnunluğunun təmin edilməsində, hər bir şəxsin qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.



Müzakirələrə başlamazdan əvvəl nazir V.Eyvazov Xankəndi şəhəri və ona yaxın ərazilərdə yerləşmiş Ermənistan ordusunun qalıqlarının basdırdığı minaların bu il sentyabrın 19-da partlaması nəticəsində daha 6 nəfərin, o cümlədən polis əməkdaşlarının həlak olması, həmin gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş lokal antiterror tədbirlərində iştirak edən Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 20 nəfərin şəhid olmasını və 24 nəfərin yaralanmasını, ümumilikdə isə Vətən müharibəsi də nəzərə alınmaqla Daxili Qoşunların və polisin 78 şəhid verdiyini və 370 nəfərin yaralandığını diqqətə çatdırıb və bütün şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

General-polkovnik V.Eyvazov oktyabrın 15-də də ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi şəhər polis şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini, işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektlərinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdən çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd edib.

Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələri böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğulayıb.

Nazir daha sonra bildirib ki, daxili işlər orqanları və Daxili Qoşunlar qanunla müəyyən edilmiş vəzifələri cari ilin 9 ayında da layiqincə yerinə yetirib. Ümumi cinayətlərin açılması 86,8 faiz təşkil edib, Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 26.778 cinayətin 88,6 faizi açılıb. Baş Prokurorluqla birgə görülmüş tədbirlərlə keçmiş illərdən bağlı qalmış 336, o cümlədən bir neçə xüsusilə ağır cinayətin açılması təmin edilib.

Qəsdən sağlamlığa ağır zərər vurmaların, xuliqanlıqların, quldurluqların, dələduzluqların, hədə-qorxu ilə tələb etmələrin, soyğunçuluqların və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Odlu silahın tətbiqi ilə törədilən cinayətlər, oğurluqlar, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, avtonəqliyyat vasitələrinin qaçırılması faktlarının sayı azalıb.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 466 nəfərdən ibarət 178 cinayətkar qrup zərərsizləşdirilib. Axtarılan təqsirləndirilən şəxslərin 83,3 faizi tutulub. Törədilmiş cinayətlər nəticəsində vətəndaşlara dəymiş maddi ziyanın 79, xırda talamalar nəticəsində vurulmuş ziyanın 93,1 faizi ödətdirilib.

Ölkədə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də nəzarətdə saxlanılıb. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 19 kiloqram çox – yəni 4 ton 18 kiloqram narkotik vasitə və 343 kiloqram psixotrop maddə çıxarılıb. 244 nəfərdən ibarət 110 cinayətkar qrup zərərsizləşdirilib və bu cinayətlərə görə ümumilikdə 6.344 nəfər məhkəmə məsuliyyətinə verilib. Antinarkotik təbliğat sahəsində işlər də davamlı olmaqla təhsil müəssisələrində 1.028 maarifləndirmə tədbiri keçirilib.

Yol hərəkəti təhlükəsizliyinin təmini və təşkili, qəzaların qarşısının alınması, sürücü intizamının artırılması məqsədilə davam etdirilən tədbirlərlə respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 55 fakt, qəzalar nəticəsində xəsarət alanların sayı 65 nəfər azalıb. Müəyyən edilmiş yol hərəkəti qayda pozuntularının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 milyondan çox artaraq 5,1 milyona çatıb və onların 64 faizi xüsusi texniki vasitələrlə aşkarlanıb.

Vətəndaşların müraciətlərinə baxılması, qəbulların keçirilməsi, şikayətlərə çevik reaksiya verilməsi sahəsində görülən işlər ötən 9 ayda da gündəlik nəzarətdə qalmaqla daxil olmuş 75.146 müraciətə baxılıb, habelə bu mühüm işə paralel olaraq kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 9 şəhər və rayonunda 3.000-ə yaxın vətəndaşın qəbulu həyata keçirilib. Qaldırılan problemlərin həlli təmin edilib, təşəbbüskarlardan 2.500-dən çox minnətdarlıq məktubları alınıb.

Gündəlikdəki məsələlər üzrə nazirliyin aidiyyəti baş idarələrinin və bir sıra ərazi orqanlarının rəisləri görülmüş işlər, əldə edilmiş nəticələr, fəaliyyətin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmini sahəsində qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini vurğulayıb.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir bu istiqamətdə fəaliyyətin daha böyük əzm və qətiyyətlə həyata keçirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə yönəldib. Həmçinin yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən blogerlərə və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına təşəkkürlərini bildirib.

Paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin zəruriliyinə toxunub, hərəkətin təhlükəsizliyinin təmini ilə əlaqədar qarşıda duran vəzifələri müəyyən edib və aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsində, dövlətə inam və etimadın güclənməsində böyük əhəmiyyət kəsb edən müraciətlərə baxılması işinə xüsusi diqqət çəkən nazir V.Eyvazov şikayətlərə çevik reaksiya göstərilməsi işinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi üçün əlavə tapşırıqlar verib.

Nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan müəyyən nöqsan və çatışmazlıqlara da diqqət yönəldərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsini, hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının bundan sonra da etibarlı qorunmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını, şəxsi heyətin etik davranış qaydalarına daim riayət etməsini, qanunçuluğun möhkəmləndirilməsini və peşəkarlıq səviyyəsinin günbəgün artırılmasını mühüm vəzifə kimi irəli sürüb.

Kollegiya iştirakçılarının diqqətini ötən illər ərzində beynəlxalq təşkilatların nümayəndə heyətləri ilə baş tutmuş görüşlərə də yönəldən nazir V.Eyvazov ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirləri xüsusi vurğulayaraq qeyd edib ki, bu sahədə fəaliyyətin effektivliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi üzrə aparılan müzakirələr və görülmüş işlər çox faydalı olub.

Konkret olaraq, fəaliyyətin müasir tələblərə və mütərəqqi beynəlxalq təcrübəyə uyğun qurulmasında mühüm əhəmiyyət kəsb edən şəxsi heyətin professional hazırlığının artırılması məqsədilə son 5 ildə təkcə insan hüquqları üzrə Azərbaycanda və xarici dövlətlərdə keçirilən seminarlarda, təlim kurslarında, konfranslarda və digər tədbirlərdə daxili işlər orqanlarının 3000-dən çox əməkdaşının iştirak etdiyini diqqətə çatdırıb. O, Polis Akademiyasında keçirilən məşğələlərə Avropa ekspertlərinin dəvət edildiyini, treninqlərin onlar tərəfindən də keçiriləcəyini bildirib, habelə aidiyyəti tədris proqramlarının qısa müddətdə yenilənməsinə dair tapşırıqlar verib. “Açıq hökümətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair” Milli Fəaliyyət Planları əsasında idarədaxili nəzarət mexanizmlərinin, aidiyyəti vəzifə təlimatlarının təkmilləşdirildiyini, aidiyyəti qanunvericilik aktlarına beynəlxalq təcrübəyə uyğun dəyişikliklər edilməsi üçün layihələrin hazırlandığını, tutulmuş və həbs edilmiş şəxslərin beynəlxalq konvensiyalarda təsbit olunmuş bütün hüquqlarının və dindirmələrin şəffaflığının təmin edilməsi mövzularında respublikanın istintaq qurumlarının əməkdaşları üçün virtual təlimlərin təşkil edildiyini nəzərə çatdırıb. Nazirlik tərəfindən həyata keçirilən qətiyyətli tədbirlərin məntiqi nəticəsi kimi şəxsi heyət arasında neqativ halların minimuma endiyini, ötən 5 ildə xidməti intizam və etik davranış qaydalarını pozmuş 1.286 əməkdaş barəsində araşdırmalar aparılaraq 121 nəfərin xidmətdən xaric edildiyini, 139 nəfərin tutduğu vəzifədən azad olunduğunu, 1.026 nəfər haqqında başqa növ məsuliyyət tədbirləri görüldüyünü, cari ilin ötən dövründə isə polisə gətirilmiş şəxslərə qarşı kobudluğa yol vermiş 7 əməkdaşın xidmətdən xaric edildiyini, 16 əməkdaşın vəzifəsindən azad olunduğunu, daha 21 əməkdaşa başqa növ intizam tənbehlərin verildiyini qeyd edib.

Nazir bütün ərazi polis orqanlarının rəislərindən insan hüquqlarının müdafiəsi sahəsində vəziyyətin, xüsusən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasını tələb edib, onlara qarşı kobudluğun, hər hansı formada pis rəftarın yolverilməzliyini, qanundankənar davranışın ciddi məsuliyyət doğuracağını, normativ-hüquqi aktların tələblərinə dönmədən riayət olunmasının vacibliyini xatırladıb, bu istiqamətlərdə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifə sahibinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Bütövlükdə Daxili İşlər Nazirliyinin beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini, qarşılıqlı əlaqələrin gələcəkdə də konstruktiv şəkildə həyata keçiriləcəyini ifadə edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydalarının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

**XQ**

“Xalq qəzeti”nin sorğusu

# UNESCO Azərbaycana dəvət edilsə də...

## Mədəniyyət Nazirliyi bu çağırışı beynəlxalq quruma çatdırıbmı?



**Ermənistan 30 illik hərbi təcavüz zamanı Azərbaycanın işğal olunmuş ərazilərində mədəni irsi tamamilə dağıdıb və vandalizmə məruz qoyub. Tarixi və arxeoloji abidələr, məscidlər, məbədlər, məqbərələr, məzarlar, muzeylər, eksponatlar, sənət qalereyaları və kitabxanalar, vəhşicəsinə talan olunaraq yerlə-yeksan edilib. İşğal altında olmuş ərazilərdə 2000-dən çox təhsil müəssisəsi Ermənistan tərəfindən tamamilə dağıdılıb.**

Ermənistanda da Azərbaycanın mədəni irsinin dağıdılması və mənimsənilməsi üzrə sistemli siyasət həyata keçirilib. İrəvan, Qərbi Zəngəzur, Vedi, Nüvədi, Göyçə və bir çox digər dədə-baba və tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların izləri tamamilə silinib.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayevin təşkilatın İcra Şurasının 217-ci sessiyasında təqdim etdiyi ölkəmizin milli bəyanatında bildirilib ki, Azərbaycan öz milli imkanları daxilində və Qoşulmama Hərəkatının sədri kimi sülh, təhlükəsizlik və Qlobal Dayanıqlı İnkişaf Gündəliyinə töhfə verməkdə davam edir, beynəlxalq həmrəyliyi və çoxtərəfliliyi təşviq etmək üçün səylərini əsirgəmir. Ancaq regionda hələ də mövcud olan irqçilik, ayrı-seçkilik və bununla bağlı dözümsüzlük kimi təhlükəli tendensiyalar narahatlıq doğurur.

Tarixi torpaqlarımızda məskunlaşan ermənilər təkcə torpaqlarımıza deyil, eyni zamanda da qədim türk-alban mədəniyyətinə mənsub olan abidələrə sahib çıxırlar. İndiki Ermənistan ərazisində bir sıra abidələr var ki, sırf türk-alban mədəniyyətinin tarixini əks etdirir. Zaman-zaman Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq əməllərinə haqq qazandırmaq məqsədilə Qafqaz Albaniyasının xristian kilsəsinə aid kilsə, məbəd və monastrları erməni abidələri elan edirlər. Türk-alban, qıpçaq xristian məbədlərini erməni abidələri adı ilə UNESCO-ya təqdim edirlər. Hətta bir neçə abidə “erməni mədəniyyətinin nümunəsi kimi” beynəlxalq təşkilatın siyahısına salınıb.

Azərbaycan hökumətinin, çoxsaylı Azərbaycan QHT-lərinin və Qərbi Azərbaycan İcmasının Ermənistanda mədəni irsimizin dağıdılmasından dərin narahatlıq ifadə edən və bu ölkədə mövcud vəziyyəti qiymətləndirmək üçün UNESCO-nun Baş direktoruna faktaraşdırıcı missiya göndərməklə bağlı müraciətləri Azərbaycan xalqının haqlı tələbidir. Ancaq bu tələbə əhəmiyyət verilmir.

**“Xalq qəzeti” Mədəniyyət Nazirliyinə sözügedən məsələ ilə bağlı sorğu göndərib. “Bu gün erməni vandalizminin araşdırılması üçün hansı konkret addımlar atılır, nə kimi işlər görülür?” – sualına aldığımız cavabı olduğu kimi təqdim edirik: “Ermənistan Respublikası işğalda saxladığı müddətdə suveren ərazilərimizdə yerləşən abidələrimizi dağıntı, vandalizm və özününküləşdirməyə məruz qoymuşdur. Bütün bunlar həm Azərbaycan Respublikasının qanunvericiliyinə, həm ümumbəşəri dəyərlərə, həm də beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" UNESCO-nun 1954-cü il Haaqa Konvensiyası, "Dünya mədəni və təbii irsinin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və digər beynəlxalq hüquqi sənədlərin kobud şəkildə pozulmasının, bu ölkənin təcavüzkar siyasətinin göstəricisidir.**



**Sözsüz ki, Ermənistan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan xalqına məxsus olan tarixi irsin dağıdılmasına, məhv edilməsinə görə məsuliyyət daşıyır. Azərbaycan tərəfi iştirak etdiyi bütün beynəlxalq kürsülərdən, o cümlədən UNESCO səviyyəsində bu məsələyə diqqət yönəldilməsini tələb edir”.**



Göründüyü kimi, nazirliyin cavabında hər hansı bir iş görülməsindən deyil, yalnız kağız üzərində olan qaydalardan danışılır. Bu yazılanlar qəzetimizin sualına cavab deyil, hamının bildiklərini, sadəcə, bir daha təkrar etməkdir.

Bilavasitə vəzifə borcu, milli təəssübkeşlik, haqlı tələblə bağlı qətiyyətli mövqe budurmu? Nazirliyin müvafiq qurumları nəyə görə mədəni irsimizin dağıdılması və mənimsənilməsinə dair “həyəcan” təbilini daha ucadan çalmırlar?! Hansı əsasla mətbuatın sorğusuna başdansovdu cavab verməklə işlərini bitmiş hesab edirlər?

UNESCO-ya, digər beynəlxalq təşkilatlara erməni vandalizminə qiymət verilməsi üçün daha intensiv çağırışlar etməyin, müvafiq tədbirlər görülməsinə nail olmağın, dünya ictimaiyyətini ayağa qaldırmağın vaxtı deyilmi?!

Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq məclislərdə, işğaldan azad edilmiş ərazilərə səfərlərində UNESCO-nu dönə-dönə regiona dəvət edib. Dövlət başçısı aydın və konkret şəkildə deyir: “UNESCO gəl, gör Ermənistan Azərbaycanda hansı vandalizmi törədib?” UNESCO-dan isə səs çıxmır.

Mədəniyyət Nazirliyinə müraciətimizin mədsədi də bu idi ki, qurumun ölkə rəhbərliyinin çağırışlarının UNESCO-ya çatdırılmasında gördüyü işləri barədə xalqa məlumat verək. Nazirliyin cavabından bu məlum oldumu?

***R.QURBANLI***
***XQ***

# Tarixi İpək yolu Orta Dəhlizə çevrilir

**(əvvəli 1-ci səhifədə)**

Burada mühüm bir məqama da toxunmağı zəruri bilirik. Hazırda Orta dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) yeni İpək Yolu olması üçün əhəmiyyətli layihələr həyata keçirilir. Əslində, bu, Asiya, Avropa və Yaxın Şərqi birləşdirən “Bir kəmər, bir yol” təşəbbüsüdür. Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.



Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır.

Bütün marşrut boyunca vahid tarif yaradılıb, “vahid pəncərə” prinsipi tətbiq olunub. Aİ Orta Dəhlizi Trans–Avropa Nəqliyyat Şəbəkəsini inteqrasiya baxımından ən perspektivli adlandırır. İlkin qiymətləndirmələrə görə, perspektivdə fasiləsiz tədarükü təmin etməsi üçün marşrutun inkişafına 18,5 milyard avro tələb olunur. Ekspertlər bildirirlər ki, investisiyanın əhəmiyyətli hissəsini Aİ öz üzərinə götürməyə hazırdır. Sərmayə əsasən, dəmir yolu və avtomobil dəhlizlərinin bərpası və yenidən qurulması, limanların ötürücülük qabiliyyətinin artırılması və sərhədlərdə infrastrukturun inkişafı üçün lazımdır.

Bu il oktyabrın 26-da isə Tbilisi şəhərində keçirilən 4-cü İpək Yolu Forumunda çıxış edən Baş nazir Əli Əsədov dünyada baş verən son dəyişikliklər fonunda iqtisadi əməkdaşlıq və nəqliyyat bağlantıları ilə əlaqədar yaranan çağırışların toplantının region və bütün dünya üçün əhəmiyyətini daha aydın şəkildə göstərdiyini vurğulayıb. Əli Əsədov, eyni zamanda, Azərbaycan və Gürcüstanın tarixən Avropa ilə Asiya arasında iqtisadi-ticari əlaqələrdə oynadıqları körpü rolunun bu gün də uğurla davam etdirildiyini, həmçinin hər iki dövlətin ötən əsrin 90-cı illərin sonlarında İpək yolunun bərpası konsepsiyasını ilk dəstəkləyən ölkələrdən olduqları diqqətə çatdırıb.

Şübhəsiz ki, bu gün Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) yeni İpək Yolu olması üçün bu xətt üzərində yerləşən ölkələrin, o cümlədən Azərbaycanın fəaliyyəti, regional nəqliyyat dəhlizinin inkişafı üçün gördüyü işlər və müsbət nəticələr beynəlxalq miqyasda yüksək dəyərləndirilir. Bu fikrin təsdiqi olaraq bəzi faktları diqqətə çatdırmaq istərdik. Əvvəlcə onu qeyd edək ki, yüklərin Qazaxıstandan Gürcüstan limanlarına çatdırılma müddəti ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə azalıb. Növbəti il üçün hədəfin bu müddəti iki dəfəyə qədər, yəni 11-15 günə endirilməsi nəzərdə tutulub.

Gürcüstan da ötən illər ərzində İpək yolunun bərpasında fəal iştirak edib, bu istiqamətdə genişmiqyaslı layihələr reallaşdırıb. Məsələn, qonşu ölkə ərazisindəki dəmir yollarını müasirləşdirib, yeni limanlar salıb və genişləndirib, yol infrastrukturunu gücləndirib.

Qardaş Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu da ölkəsində bu sahədə görülən işlər haqqında mediyaya müsahibəsində bildirib ki, Orta Dəhlizin yeni İpək Yolu olması üçün respublika daxilində şərq-qərb və şimal-cənub istiqamətlərində çatışmayan nəqliyyat əlaqələrini tamamlayacaq layihələr həyata keçirilir. O, həmçinin diqqətə çatdırıb ki, bu kontekstdə Asiya, Avropa və Yaxın Şərqi birləşdirəcək “Bir kəmər, bir yol” layihəsi Türkiyə üçün çox mühüm fürsət hesab edilir. Londondan Pekinə uzanan “Dəmir İpək Yolu”nun reallaşdırılması Türkiyənin əsas hədəflərindən biridir.

Nazir vurğulayıb ki, Türkiyədə hazırda 4 faiz olan dəmir yolu daşımalarının payını 2029-cu ildə 11 faizə, 2053-cü ildə isə 22 faizə yüksəldilməsi gözlənilir. Bununla da, 2053-cü ilə qədər ölkəsində yük daşımalarında dəmir yollarının payının 7 dəfə artırılması planlaşdırılır. Bundan başqa, beynəlxalq yük daşımalarında dəmir yollarının payını 10 dəfəyə qədər artırmaq nəzərdə tutulur.

İpək yolunun bərpasında Azərbaycana gəldikdə isə deyə bilərik ki, bu qədim marşrutun inkişafında tarixən təkcə iqtisadi deyil, həm də ictimai-siyasi, mənəvi və elmi dünyagörüşü, sülh şəraitinin, dinc-yanaşı yaşam tərzinin qorunub saxlanması baxımından mühüm önəm daşıyıb. Bununla belə yolun mənəvi-mədəni, sosial nəticələri, eyni zamanda, tranzit cəmiyyətlərin də tərəqqisində xüsusi rol oynayıb. Ümumiyyətlə, İpək yolu ölkələri quru və dənizlər vasitəsilə yaxınlaşdırmaqla, mövcud əlaqələri genişləndirməklə bərabər, ticarət münasibətləri əsasında konkret iqtisadi-maddi tələbat və ehtiyacları gerçəkləşdirib.

Azərbaycan İpək yolunun bərpası ilə bağlı ötən müddətdə dövlətimizin başçısının vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyub, qonşularla bağlantı körpülərinin qurulmasını diqqətdə saxlayıb. Beləliklə, “Bir kəmər, bir yol” layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemini qısa zamanda gerçəkləşdirib. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yaradıb.

Hazırda Yeni Bakı Ticarət Limanı genişləndirilir, bununla da Şərqdən–Qərbə daşınan yüklərin həcminin artacağı təqdirdə yükaşırma problemlərinin qarşısı alınır. Başqa sözlə, Azərbaycanın mövcud ticarət infrastrukturu bir neçə il əvvəl fəaliyyətə başlayanda onun yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə Yeni Bakı Ticarət Limanının imkanlarını 25 milyon tona qədər çatdırmaq qarşıya mühüm vəzifə kimi qoyulur. Bundan başqa, gəmi tikintisi diqqətdə saxlanılır. İndi gəmiqayırma zavodunun ildə 20-dək gəmi inşa edəcəyi planlaşdırılır. Bu, həm Azərbaycanda, həm də Xəzər dənizində yükdaşımaya tələbat artması ilə bağlıdır. Ümumiyyətlə, hazırda Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir. Bu, ölkəmizin daha çox yük daşımaq imkanından xəbər verir.

Azərbaycan yuxarıda qeyd edilənlərlə yanaşı, respublikanın dəmir yolunu qatarların sayının və sürətinin artırılması məqsədilə müasirləşdirib. Nəticədə ölkəmiz vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artıb. Eyni zamanda, tariflərlə bağlı vahid siyasətin reallaşması istiqamətində danışıqlar aparıb, gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə qurulmasını diqqətdə saxlayıb.

Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars (BTQ) nəqliyyat dəhlizinin inkişafı da İpək yolunun yenidən qurulmasında böyük əhəmiyyətə malikdir. 2017-ci il oktyabrın 30-da istifadəyə verilən BTQ dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır.

Xatırladaq ki, 2007-ci il fevralın 7-də Tbilisidə Prezident İlham Əliyevin təşəbbüsü ilə BTQ dəmir yolunun tikintisinə dair saziş imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib.

Yeri gəlmişkən, ümumi uzunluğu, təxminən, 850 kilometr olan BTQ dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu marşrutunun 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir. Ekspertlərin fikrincə, BTQ dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır. Sabitlik və təhlükəsizliyə xidmət edən bu dəmir yolu vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

BTQ dəmir yolunun tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün layihənin cəlbediciliyini artırmaqla bərabər, Mərkəzi Asiya ölkələrinin–Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropaya, eləcə də dünya bazarlarına çıxışını asanlaşdırır, həmin dövlətlərin iqtisadi-ticari əməkdaşlığının möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır.

***V.BAYRAMOV***
***XQ***

# Topxana–qəhrəmanlıq və təbiət abidəsi

*Erməni vandalları bu nadir gözəlliyə də ağır yaralar vurublar*

**Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa düşmən tapdağından azad ediləndən sonra şəhərdə bərpa-quruculuq işlərinə başlandı. Tarixi binaların, abidələrin bərpası sürətlə həyata keçirildi, şəhərin yuxarı məhəlləsində yaşayış kompleksinin inşası diqqətdə saxlanıldı.**

**Şuşada olarkən bütün bu quruculuq işləri ilə maraqlandıq. Təbiətin qənirsiz gözəlliyini–Topxana meşəsini görmək isə insanda rahatlıq yaradır, bir yüngünlük hiss edirsən. Onu da deyək ki, Topxana bizim üçün təkcə meşə, təbiət deyil, həm də xalqımızın tarixi, ədəbiyyat və mədəniyyəti ilə bağlı müqəddəs bir məkandır. Bu meşə tarixən qəhrəmanlıq və gözəllik rəmzi sayılıb. Topxana adı da tarixlə bağlıdır. Bu barədə şuşalı məcburi köçkün Tahirə Məmmədova dedi:**

– Topxananın adı tarixi hadisə ilə bağlıdır. 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirəyə aldığı zaman topları bu ərazidə yerləşdirmişdi. Bu səbəbdən də həmin ərazi “Topxana”, meşə isə “Topxana meşəsi” adlanır.

Qədim tarixə malik Topxana meşəsi bu gün Şuşanın nadir sərvətlərindən biridir. Meşədə nadir ağaclarla yanaşı, heyvanat aləmi də zəngin olub. Vadidəki bulaqların suyu soyuqluğuna və keyfiyyətinə görə fərqlənib. Lakin düşmən işğal dövründə təbii sərvətlərimizi talayıb, meşələrimizi qırıb. 1988-ci ilin noyabrında başlanan ekoloji terror nəticəsində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib.

**Tarix müəllimi Əmirxan Burzuyev isə bildirdi:** 1988-ci ilin payızında namərd əllər Topxanaya, təbiətin bu qənirsiz gözəlliyinə uzanmışdı. Burada gecə-gündüz traktorlar, buldozerlər torpağın altını üstünə çevirir, nadir güllər, çiçəklər, ağaclar məhv olur, tikinti materialları daşınırdı. Ermənistan SSR-nin alüminium zavodlarından biri üçün sex və pansionatın tikintisi həyata keçirilirdi. Azərbaycana demək istəyirdilər ki, bu torpaqların sahibi bizik, istədiyimizi edəcəyik. Əgər bu plan tam həyata keçirilsəydi onda Topxana meşəsinin, Cıdır düzünün, Şuşanın təbiəti, havası, suyu nə günə düşərdi? Digər tərəfdən, bu, tariximizin bir parçasının məhv edilməsinə səbəb olacaqdı. Buna yol vermək olmazdı. Verilmədi də.

1988-ci il noyabrın 17-də yüz minlərə insan Bakının Azadlıq meydanına toplaşdı. Mən də mitinqdə iştirak edirdim. İnsanlar çox həyəcanlı idilər, özlərini təhqir olunmuş hiss edirdilər. Şuşa yaxınlığındakı Topxana meşəsinin qırılmasına və ərazidə Ermənistanın Kanaker alüminium zavodunun işçiləri üçün pansionatın tikilməsinə etirazımızı bildirdik. Sonradan Topxana meşəsinin qırılmasına etiraz kimi başlayan bu hərəkat ideya transformasiyasına uğrayaraq Sovet hakimiyyətindən azadlıq tələb edən milli oyanış hərəkatına çevrildi. 1988–1991-ci illərin Milli–Azadlıq Hərəkatı Azərbaycanda müstəqillik aktının (18 oktyabr, 1991-ci il) qəbul olunması ilə nəticələndi və Azərbaycan ikinci dəfə müstəqil dövlət olaraq öz varlığını dünyaya elan etdi. SSRİ-nin süqutuna qədər Topxana meşəsində isə heç bir tikinti işləri gerçəkləşmədi. Mən bu hadisələrin canlı şahidiyəm və bu gün qürur duyuram.

**Tahirə Məmmədova yenidən söhbətə qoşularaq dedi:**



– Şuşa erməni silahlı birləşmələri tərəfindən işğal olunduqdan sonra alüminium zavodunun sex və pansionatı tikilməsə də, işğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyırdılar. Topxana meşəsindən 2 min ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana aparıldı.

Şuşanın Cıdır düzündə, “Ağzı yastı” kahanın qarşısında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib. Beləliklə, 28 il 7 ay ərzində işğal altında qalmış Topxana meşəsi demək olar ki, dağıdılıb, bitki örtüyü, heyvanat aləmi məhv edilib. Buna Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük müharibədə Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratması ilə son qoyuldu.

Dövlət başçımızın rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri yenidən bu yerlərə həyat verir, ermənilərin ekoloji sistemə vurduqları ziyan aradan qaldırılır. Ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Ərazilər minadan təmizləndikcə daha çox iş görüləcək. 2021-ci ildə işğaldan azad olunmuş ərazilərdə 20 mindən çox ting əkilib, 3 tona yaxın toxum səpilib. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində “Regional İnkişaf” İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində də ağacəkmə aksiyası keçirilib. Təkcə bir gündə, noyabrın 8-də Topxana meşəsini də əhatə edən ağacçəkmə kampaniyası zamanı 3 hektar ərazidə dağdağan, göyrüc, saqqızağacı, qarağac əkilib, əraziyə 100 kiloqram palıd toxumu səpilib. Bu proses sonrakı illərdə də davam edib.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidmətinin rəisi Xalıqverdi Hüseynov bildirdi ki, həmin ərazidə həm ağaclar əkilib, həm də ağac toxumları səpilib:**

– İlkin olaraq həmin ərazidə palıd, vələs, dağdan ağacları əkmişik. Həmçinin nazirliyin əməkdaşları meşədə təhlil aparıb. Təhlilin nəticəsindən asılı olaraq aiddiyyəti qurumlara təkliflər göndərilib. Proses davam edəcək, Topxana meşəsi əvvəlkindən daha zəngin meşə örtüyünə və heyvanat aləminə sahib olacaq.

Unutmayaq ki, Topxana meşəsi təkcə meşə, təbiət deyil, həm də xalqımızın tarixinin bir parçasıdır. O, Şuşanın ədəbiyyat və mədəniyyəti ilə bağlı müqəddəs bir yerdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Şuşa**

# "Abşeron" yatağı xaricdə böyük maraq doğurur

## Bu, Azərbaycanın Avropanın enerji tələbatında oynadığı rolun önəmi ilə bağlıdır

(əvvəli 1-ci səhifədə)

Məlumatda qeyd edilib ki, Azərbaycanda əksər neft və qaz layihələri hasilatın pay bölgüsü sazişləri əsasında həyata keçirilir və bu müqavilələrdə SOCAR minoritar paya malikdir. Şirkət bu layihələrdə dövləti təmsil edir, neft və təbii qazın satışını həyata keçirir. Bundan əlavə, SOCAR-ın dövlətin dəstəklədiyi digər iri enerji təşəbbüslərdə, o cümlədən, Cənub Qaz Dəhlizi (SGC) kimi layihələrdə payı var.



"Fitch Ratings"in bildirdiyinə görə, SOCAR-ın neft və qaz hasilatı 2022-ci ildə sutkada 284 min barel neft ekvivalenti səviyyəsində sabit olaraq qalıb. Bu, Azərbaycanın neft hasilatının 6 faiz azalması və qaz hasilatının isə 7 faiz artması fonunda baş verib. Agenliyin qənaətinə əsasən, vəziyyətin belə dəyişəcəyi gözlənilməz olub. Hazırda təbii qaz hasilatının artmasına əsaslanılaraq, 2023-2025-ci illərdə SOCAR-ın hasilatının ildə 0,5 faiz yüksələcəyi proqnozlaşdırılıb.

Onu da deyək ki, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağından ilk qaz cari ilin iyul ayının əvvəlində hasil edilib. Bu il avqustun 4-də isə SOCAR, "TotalEnergies" və ADNOC (Əbu-Dabi Milli Neft Şirkəti) şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışı ilə bağlı saziş imzalanıb. SOCAR və "TotalEnergies" şirkətlərinin hər birinin iştirak payları isə müvafiq olaraq 35 faiz həddində müəyyənləşdirilib.

SOCAR-dan verilən məlumata görə, "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi sualtı hasilat quyusunu "Neft daşları"ndakı mövcud qurğularla əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

Yuxarıda qeyd edildiyi kimi, İHS layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur. "Abşeron" yatağının ehtiyatı da daxil olmaqla Azərbaycanın təsdiqlənən qaz ehtiyatı 2,2 trilyon kubmetrdir. Ölkəmizin illik qaz ixracı isə 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan bu həcmdə qaz ixracını 30-31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır.

Yeri gəlmişkən, ADNOC-un Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hüdudlarından kənarda ilk investisiyanı ölkəmizə yatırması respublikamızda xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələri daha da gücləndirəcəyi və ölkəmizin etibarlı təbii qaz təchizatçısı kimi mövqeyinə dəyərli töhfə verəcəyi gözlənilir.

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) satınalma proseduru tamamlandıqdan sonra "Abşeron" qaz-kondensat yatağında 30 faiz iştirak payı əldə etməsi ilə Xəzər dənizinin ölkəmizin sektorundakı layihələrə yeni bir nəfəs və baxış formalaşdıracaq.

Azərbaycanın son 10 ildə ərəb ölkələri ilə əlaqələri genişlənməkdədir. ADNOC şirkəti Birləşmiş Ərəb Əmirliklərinin 90 faizdən çox neftini Əbu-Dabi Əmirliyində çıxarır. Belə bir şirkətin Azərbaycanda təmsilçiliyi isə qərblə şərq arasında yeni münasibətlərin formalaşmasına zəmin yaradır.

Respublikamızın indiyə qədər imzaladığı 40-a yaxın hasilatın pay bölgüsü və risk servis tipli müqavilələri çərçivəsində faktiki olaraq ərəb şirkəti yox idi. Bir vaxtlar Azəri-Çıraq-Günəşlidə yarı ərəb şirkəti olub, ancaq onlar da sonradan paylarını satıb gediblər.

"Abşeron" qaz-kondensat yatağı "Şahdəniz–2" kimi mürəkkəb geoloji struktura malikdir. Lakin "Şahdəniz-2" layihəsindən daha dərində yerləşir. Ona görə də "Abşeron" qaz-kondensat yatağında da manifold texnoloji üsulu ilə hasilatın həyata keçirilməsi gerçəkləşəcək. Bu isə çox bahalı layihədir. Bu baxımdan SOCAR və "TotalEnergies" yarıbayarı paya malik idilər. Onlar öz paylarından 15 faiz kəsib ərəb şirkətinə satışa çıxardılar. Bu, "Abşeron–2" layihəsi üzrə mümkün kapital yatırımında risklərin daha azaldılması mənasını verir.

Yeri gəlmişkən, "Abşeron" layihəsi çərçivəsində bir ildə maksimum 1,5 milyard kubmetr qazın hasil edilməsi planlaşdırılır. Bu qazın bütünlükdə Azərbaycanın daxili tələbatının ödənilməsinə yönəldilməsi qarşıda mühüm vəzifə kimi durur. Yatağın ikinci mərhələsində çıxarılacaq qazın isə xarici bazarlarda satılması və yaxın beş il ərzində bu perspektivin gerçəkləşməsi nəzərdə tutulur. Eyni zamanda, yatağın ikinci mərhələsində nə qədər qazın hasil olunacağlı ilə bağlı SOCAR və onun tərəfdaşı hazırda danışıqlar aparır.

Sonda qeyd edək ki, "Abşeron" çox mürəkkəb quruluşa malik qaz-kondensat yatağı olaraq indiyədək Xəzər dənizində açılan və istismar edilən ən dərin hissədə yerləşir. Əgər "Şahdəniz" yatağı dənizin 550 metr dərinliyində yerləşirsə, "Abşeron" 600 metr dərinlikdədir. O cümlədən məhsuldar qaz layları əgər "Şahdəniz"də 6 min 800–7 min 100 metr dərinlikdədirsə, "Abşeron" yatağında bu 7 min 300 metr dərinliyə qədər uzanır. Ona görə, mürəkkəblik baxımından Xəzər dənizində indiyənədək hasilat gözlənilən ən mürəkkəb yataqdır.

Göründüyü kimi, "Abşeron" qaz-kondensat yatağından çıxarılan "mavi yanacaq" mühüm önəm daşıyır. Çünki indiyə kimi, Azərbaycanın ixracla bağlı əsas qaz resursu "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün isə artıq ölkəmizə məxsus iki böyük qaz-kondensat yatağı var.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Prezident İlham Əliyev "Abşeron" qaz-kondensat yatağının fəaliyyəti ilə bağlı çıxışlarının birində bildirib ki, bu yataqda 350–360 milyard kubmetr qaz ehtiyatları var. Amma həmin göstəricinin daha çox olacağı gözlənilir. Çünki artıq Azərbaycanda olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük ehtiyatlar üzə çıxır və 100 milyon ton kondensat da bura əlavə edilsə, vəziyyət haqqında aydın təsəvvür yaranır. Bu konsendat isə, əslində, xam neftə bərabər olan bir məhsuldur və beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır.

Dövlət başçısı onu da bildirib ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qazın daxili tələbata istiqamətləndirilməsi təsadüfi deyil. Çünki buna ehtiyac var. Artan əhali, getdikcə güclənən sənaye bunu tələb edir. İkinci mərhələdə çıxarılacaq qaz isə təbii ki, ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki bu yatağın tam işlənməsinin mərhələli yollarla öz həllini tapacağı proqnozlaşdırılıb.

Yeri gəlmişkən, "Fitch Ratings" beynəlxalq reytinq agentliyinin məlumatında "Abşeron" yatağından bu il 700 milyon kubmetrdən artıq qaz, 1,8 milyon barel qaz kondensatı çıxarılacağı bildirilir.

Qeyd edim ki, bu yataq istismara veriləndən indiyədək 453 milyon kubmetr qaz və 171 min ton qaz kondensatı çıxarılıb. Onu da əlavə etmək lazımdır ki, yataqda illik hasilatı 1,5 milyard kubmetrdən 6 milyard kubmetrədək artırmaq planlaşdırılır.

## Arazqırağından mədəniyyət paytaxtına yeni yol

### *Əhmədbəyli–Füzuli–Şuşa magistralı gələn il istifadəyə veriləcək*

**Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihəsinin böyük hissəsi üzrə aparılan işlər başa çatıb.**



Bu məlumatı həmin layihə sənədini hazırlayan şirkətin direktor müavini Azad Məcidov deyib. O bildirib ki, yolun tikintisinin gələn ilin ikinci yarısına qədər başa çatdırılması gözlənilir.

Qeyd edək ki, sözügedən yol Zəfər yoluna paraleldir. Yolda 11 körpü çəkilib, 9-nun tikintisi başa çatıb. Yolun ümumi uzunluğu 81,73 kilometrdir. Magistralda hərəkətin intensivliyi nəzərə alınaraq onun 48-ci kilometr hissəsinə qədər 4 zolaqlı, Şuşaya qədər olan digər hissəsi isə 6 zolaqlıdır.

## Sənaye zonalarında 11 milyard manatlıq məhsul istehsal edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkə hesabında indiyə qədər ölkəmizin sənaye zonalarında 11 milyard manatlıq məhsul istehsal edildiyini və bunun təqribən 32,4 faizinin ixrac olunduğunu bildirib.**



Nazirin sözlərinə görə, bu ilin yanvar-sentyabr aylarında isə sənaye zonalarında fəaliyyət göstərən müəssisələr məhsul istehsalının dəyərini ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artıraraq 2,3 milyard manata çatdırıb. Bunun da 31,2 faizi ixrac olunub.

***XQ***

# Dünya bərpaolunan enerjiyə keçid mərhələsində



## *2030-cu ilədək tələbatın yarısını bu mənbələr ödəyəcək*

**Beynəlxalq Enerji Agentliyinin (BEA) yeni hesabatında dünyanın bərpaolunan enerjiyə keçiddə "qarşısıalınmaz" keçid dövrü yaşadığı, 2030-cu ilə qədər isə elektrik enerjisinin yarısının bərpaolunan mənbələrdən təmin ediləcəyi proqnozlaşdırılıb.**

Hesabatda deyilir ki, qazıntı yanacaqlarına qoyulan investisiyaların yarıya endirilməsi zəruridir. Bunun üçün əsas diqqət ölkələrin bərpaolunan enerjinin genişləndirilməsi, elektriklə işləyən nəqliyyat vasitələrinin sayının artırılmasına yönəldilməlidir.

Sənəddə "təmiz enerji" texnologiyalarında artımın qənaətbəxş olduğu da qeyd edilib. Belə ki, 2020-ci ildə satılan hər 25 avtomobildən birinin elektriklə işlədiyi halda, ötən müddətdə bu rəqəm beşdə birə yüksəlib. Agentliyin icraçı direktoru Fatih Birol deyib: "Təmiz enerjiyə keçid bütün dünyada baş verir və bu, qarşısıalınmaz bir prosesdir. Sadəcə onu sürətləndirmək lazımdır, çünki təmiz enerjiyə keçid nə qədər tez olsa, hamımız üçün bir o qədər yaxşıdır. Hökumətlər, şirkətlər və investorlar təmiz enerji keçidlərinə mane olmaq yerinə, bu prosesi dəstəkləməlidirlər".

Fatih Birol bu fikrini əsaslandırmaq üçün Böyük Britaniyanın və digər hökumətlərin yeni neft yataqlarının açılması ilə bağlı qərarlarını tənqid edərək onların neft və qazın dünyanın enerji və iqlim gələcəyi üçün təhlükəsiz seçimlər olduğu iddialarının həmişəkindən daha zəif göründüyünü də vurğulayıb.

BEA-nın hesabatında Yaxın Şərqlə bağlı narahatlıqlar da öz əksini tapıb. Agentlik bildirib ki, gərginliyin artmasının dünya enerji bazarlarına necə təsir edəcəyi hələ aydın deyil. Lakin BEA xəbərdarlıq edib ki, bu, onsuz da sabit olmayan qlobal iqtisadiyyatı daha çox qeyri-müəyyənliyə düçar edəcək, çünki İran və Səudiyyə Ərəbistanı kimi Yaxın Şərq ölkələrinin resursları dünya neft ehtiyatlarının 67 faizini təşkil edir.

Sözügedən hesabatın sonunda günəş və külək enerjisinin yaradılması və genişləndirilməsinin enerji dəyişkənliyinin uzunmüddətli həllini təmin ediləcəyinə ümid ifadə olunur. Bu istiqamətdə respublikamızın mövqeyinə gəlincə, deyə bilərik ki, hazırda təmiz ətraf mühit və "yaşıl inkişaf" yeni milli inkişaf strategiyası ölkəmizin 5 prioritet istiqamətindən biridir, Azərbaycan könüllü olaraq 2050-ci ilə qədər istixana qazı tullantılarını 40 faizə endirilməsi, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgələrində "yaşıl enerji" zonasının yaradılması məsələlərinə mühüm önəm verir, atmosferə atılan istixana qazlarının azaldılması sahəsində genişmiqyaslı layihələr icra edir. Ötən il Qlazqo şəhərində keçirilən iqlim sammitində respublikamızın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyasının həcmini 40 faizə qədər azaldılması şərtinin hədəf kimi götürülməsi və düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılması ilə əlaqədar planlar bəyan etməsi bunun bariz ifadəsidir.

Bundan başqa, Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi ilə bağlı vəzifələr də müəyyənləşdirilib, ətraf mühitə atılan istixana qazlarının 2030-cu ilə qədər 35 faiz azaldılması, elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması nəzərdə tutulub.

Azərbaycanda atmosferə atılan istixana qazlarının azaldılması və dekarbonizasiya sahəsində də böyük işlər aparılır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"nə çevrilməsi ilə bağlı çoxsaylı tədbirlər planlaşdırılır. Sənəddə qeyd olunduğu kimi, yaxın illərdə ölkəmizdə təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacağı, ətraf mühitə sənayeləşmənin təşviqi məqsədilə tullantıların səmərəli idarə olunması sisteminin inkişafı nəzərdə tutulur. Bunun da nəticəsində tullantıların təkrar emalı prosesinin əhatə dairəsinin ölkə üzrə 20 faizə, regionlarda isə 10 faizə çatdırılacağı gözlənilir.

Ümumiyyətlə, respublikamızda son illər həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradıb. Bunun nəticəsidir ki, respublikamızda təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda 2023-cü ilin dövlət büdcəsində ətraf mühitin mühafizəsinə 360 milyon manatdan çox vəsait ayrılıb ki, bu da 2022-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 24 faizdən artıqdır.

BMT Baş Assambleyasının 78-ci sessiyasında Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrini "yaşıl enerji" zonasına çevirmək məqsədinin də prioritet istiqamət kimi diqqətdə saxlanması məsələsi də xatırladılıb. Bildirilib ki, adları çəkilən iqtisadi rayonlar hazırda sürətlə "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanılıb.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoyub. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb.

Prezident İlham Əliyev 2021-ci il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurun ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alıb.

Sözügedən bölgənin bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Belə ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə, Qarabağın cənub düzənlik hissəsi – Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3 min-4 min meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması nəzərdə tutulur.

Qarabağda külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialının hesablanacağı qarşıda önəmli vəzifə kimi durur.

***XQ***

# Azərbaycanla İraq arasında əlaqələr genişlənir




Oktyabrın 27-də xarici işlər naziri Ceyhun Bayramov İraq Respublikası Nümayəndələr Şurasının (parlament) üzvü Elşad Salihinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı Azərbaycan–İraq münasibətlərində son zamanlar artan dinamizm, bu xüsusda, cari ilin mart və iyul aylarında müvafiq olaraq, İraq Prezidenti və xarici işlər nazirinin Azərbaycana səfərləri, bu səfərlər çərçivəsində baş tutan ali və yüksək səviyyəli görüşlər məmnunluqla xatırlanıb.

Azərbaycan ilə İraq arasında mövcud siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, parlamentlərarası və regionlararası əməkdaşlığın və mədəni mübadilələrin davamlı şəkildə sürdürülməsinin önəmindən bəhs olunub.

Hər iki ölkədəki mövcud diplomatik təmsilçiliklərdən əlavə, mədəniyyət mərkəzləri vasitəsilə humanitar mübadilələrin təşviqinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verə biləcəyi qeyd olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

XQ

# Zəfər və Dövlət bayrağı günləri ilə bağlı film Stokholmda




İsveçin paytaxtı Stokholmda “Heydər Əliyev İli” çərçivəsində qarşıdan gələn Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə isveçli film mütəxəssisi Mikael Silkebergin “Odin kodu” adlı sənədli filminin təqdimatı keçirilib.

Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgərlərimizin qanı və canı bahasına torpaqlarımızın düşmən tapdağından tam azad edilməsinin Azərbaycan tarixinin ən vacib məqamlarından biri olduğunu bildirib. Qazanılan Qələbəni beynəlxalq hüququn və tarixi ədalətin təntənəsi adlandıran Zaur Əhmədovun sözlərinə görə, sevindirici haldır ki, bu gün belə bir bayram Azərbaycan və onun zəngin mədəniyyətinin böyük dostu Mikael Silkeberg tərəfindən ərsəyə gətirilmiş, Skandinaviya və Azərbaycan arasında tarixi əlaqələrə həsr olunan "Odin kodu" sənədli filminin təqdimatı ilə qeyd olunur.

Daha sonra çıxış edən filmin rejissoru Mikael Silkeberg UNESCO üzrə Azərbaycan Milli Komissiyasına və Azərbaycanın İsveçdəki səfirliyinə filmin ərsəyə gəlməsində verdikləri dəstəyə görə minnətdarlığını bildirib. Qeyd olunub ki, bu film Azərbaycan və Skandinaviya ölkələri arasında qədim tarixə əsaslanan əlaqələrdən və bu əlaqələrin öyrənilməsinə böyük əhəmiyyət verən məşhur norveçli alim və səyahətçi Tur Heyerdalın ölkəmizə səfəri, Ümummilli lider Heydər Əliyevlə görüşlərdə səsləndirilən fikirlər və ortaya qoyulan hipotezalardan ilhamlanır.

Daha sonra “Odin kodu” sənədli filmi nümayiş olunub.

# AŞ-nin əsassız ittihamları və qərəzli münasibəti rədd edildi

The Congress Le Congrès

Azərbaycanın Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresindəki nümayəndə heyəti oktyabrın 26-da bu qurumun

Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı qəbul etdiyi bəyannamədə ölkəmizə qarşı əsassız ittihamları və qərəzli münasibəti qətiyyətlə rədd edən bəyanat yayıb.

Bəyanatda bildirilir: “Azərbaycan nümayəndə heyəti olaraq, ölkəmizə qarşı göstərilən bu ədalətsiz yanaşmanı tam şəkildə rədd edir və Konqresi regionumuzda sülh prosesi ilə bağlı lazımi ehtiyatlı davranış sərgiləməyə və ciddi şəkildə öz mandatı çərçivəsində hərəkət etməyə çağırırıq”.

XQ

# Sülhməramlılar əməliyyat zonasının adını dəyişib

Rusiya Federasiyasının Müdafiə Nazirliyi hərbi idarənin bülletenində Rusiya sülhməramlılarının Qarabağda fəaliyyət göstərdiyi zonanın adını “Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonu” kimi qeyd edib.

Əvvəllər Rusiya Müdafiə Nazirliyinin bülletenlərində hərəkət zonası “Dağlıq Qarabağ münaqişəsi zonası” adlanırdı.

27 oktyabr tarixli bülletendə, həmçinin qeyd olunur ki, yollarda hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə Xankəndi ərazisində iki post yaradılıb.

Məlumata görə, 2023-cü il sentyabrın 19-dan etibarən Rusiya sülhməramlılarının Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonlarında 8 müşahidə, 16 müvəqqəti müşahidə məntəqəsi bağlanıb.

XQ



# Türk Dünyası Media və İncəsənət Simpoziumu

Bakı Dövlət Universitetində (BDU) “Heydər Əliyev İli” çərçivəsində tədbirlər silsiləsindən Türkiyə Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumu başlanıb.



Tədbirdən əvvəl universitetin foyesində təşkil olunmuş qrafik dizayn sərgisinə baxış keçirilib. Rektor Elçin Babayev simpoziumu açaraq 2023-cü ilin Türk dünyası və Azərbaycan üçün əlamətdar olduğunu vurğulayaraq bildirib ki, bu il müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin 100 illik yubileyi böyük sevgi və ehtiramla qeyd edilir. Qardaş Türkiyə Cümhuriyyəti qurulmasının 100-cü ildönümü də xalqlarımızın böyük bayramıdır.

Bildirilib ki, Vətən müharibəsi zamanı və ondan sonra Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında türk mediası önəmli rol oynayıb. Azərbaycanla Türkiyə arasında “Media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi, “Birgə Media Platforması” çərçivəsində Azərbaycan–Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılması qardaş türk dövlətləri üçün yol xəritəsidir. Məhz dezinformasiyalara qarşı birgə mübarizə, dünya ictimaiyyətinin düzgün məlumatlandırılması, televiziya və kino sahəsində ortaq işlər, media qurumlarının tərəfdaşlığı günün tələbinə çevrilib. Ortaq dəyərlərimizin təbliği baxımından bu gün keçirilən III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumu da bu böyük missiyaya töhfə verəcək.

Türk Dünyası Jurnalistlər Federasiyasının (TDJF) sədri Menderes Dəmir çıxışında qeyd edib ki, ümumtürk ailəsinin gücü olması üçün türkdilli mətbuatın, mədəniyyət xadimlərinin, alimlərinin üzərinə böyük vəzifə düşür. Bu istiqamətdə birgə layihələr həyata keçiriləcək, ortaq dəyərlər daha geniş təbliğ olunacaq.

Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin kafedra müdiri, professor Nazire Taşpolatova, Qazaxıstan Avrasiya Universitetinin dekanı, professor Kairat Omirbayulya, Şimali Kipr Türk Cümhuriyyətinin Lekfe Avropa Universitetinin dekanı, professor Elif Asude Tuncay çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Mərasimdə BDU və Türk Dünyası Jurnalistlər Federasiyası arasında əməkdaşlıq protokolu imzalanıb. Sonra rejissor Vaqif Mustafayevin Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı ilə Ankarada keçirilən “VIII Türk Dünyası Sənədli Film Festivalı”nda baş mükafatı qazanan “Fikrət Əmirov” sənədli filmi və TDJF-nin fəaliyyətinə həsr olunmuş videoçarxlar nümayiş olunub.

Xatırladaq ki, “Doqquz ölkə, doqquz şəhər, bir festival” şüarı altında keçirilən kino bayramında mükafata layiq görülən filmlərin dünyanın 9 ölkəsində nümayiş etdirilməsi planlaşdırılıb. Bu sıradan ilk nümayiş BDU-da keçirilib.

XQ

# “Qərbi Azərbaycana doğru – Vətən bizi səsləyir”





Azərbaycan Dövlət Pedaqoji Universitetində Qərbi Azərbaycanın Dərələyəz mahalının Keşkənd və Paşalı icmalarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində “Qərbi Azərbaycana doğru – Vətən bizi səsləyir” adlı ümumrespublika konfransı keçirilib.



Məclisdən əvvəl universitetin filologiya fakültəsinin hazırladığı iki hissədən ibarət “Zəfər guşəsi”nin açılışı olub. Birinci hissədə Pedaqoji Universitetin Qarabağda şəhidlik zirvəsinə ucalmış tələbə və məzunlarının hünəri yer alıb. İkinci hissədə isə Şuşanın işğaldan azad edilməsini və xalqımızın möhtəşəm “Dəmir yumruq” birliyini əks etdirən kompozisiya təqdim olunub. Konfrans iştirakçıları universitetin foyesində Qərbi Azərbaycan mədəniyyətini və folklorunu, eləcə də tarixi abidələrini əks etdirən fotolarla, kitab sərgisi ilə də tanış olublar.

ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya fakültəsinin dekanı, Dərələyəz mahalı Keşkənd rayonu icma rəhbəri, professor Mahirə Hüseynova konfransı açıq elan edərək Qərbi Azərbaycan İcmasının tarixi torpaqlarımız uğrunda mübarizəsinin dövlət və ümumxalq dəstəyi ilə qarşılanmasının önəmini vurğulayıb.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov qeyd edib ki, əsası Ümummilli lider Heydər Əliyevin yaratdığı bünövrə üzərində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz gücü hesabına ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu gün isə Qərbi Azərbaycan Qayıdış Konsepsiyasının reallaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilir.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də İcmanın yeni inzibati binasındakı nitqində Qərbi azərbaycanlıların tarixi Vətənlərinə qayıdışı üçün Azərbaycan dövlətinin köməyinə arxalana biləcəyini bəyan edib. Dövlət başçısının həmin görüşdə qarşıya qoyduğu vəzifələr Ulu öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı “1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmandan irəli gələn hədəfləri gündəmə gətirdi.

Konfransda ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya fakültəsinin dekanı, Dərələyəz mahalı Keşkənd rayonu üzrə icma rəhbəri, professor Mahirə Hüseynova, Qərbi Azərbaycan İcmasi Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov, deputatlar Hikmət Babaoğlu, Musa Quliyev, Fəzail Ağamalı, Məlahət İbrahimqızı və digər natiqlər əzəli torpaqlarımıza qayıdışla bağlı kütləvi maarifləndirmə tədbirlərinin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Konfrans bədii hissə və Qərbi Azərbaycanla bağlı videoçarxın nümayişi ilə sona yetib.

*Namiq ƏHMƏDOV*
*XQ*

# Bakıda Çexiyanın Milli Günü

Oktyabrın 27-də Çex Respublikasının Milli Günü münasibətilə Bakıda rəsmi qəbul təşkil olunub.





Çexiyanın Azərbaycandakı səfiri Milan Sedlaçek ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələrinin inkişafından danışıb. Çexiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin bu il 30 illiyinin qeyd olunduğunu diqqətə çatdıran diplomat deyib: "Azərbaycan və Çexiya arasında siyasi, iqtisadi, mədəniyyət və digər sahələrdə əlaqələr inkişaf etdirilir. Əlaqələrimizin əhatə dairəsi getdikcə genişlənir. Ölkələrimiz arasında parlamentlərarası əlaqələr də yüksək səviyyədədir. Çex Respublikası həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Qarabağın azadlığı ilə ölkənin ərazi bütövlüyünün tam təmin olunması çex xalqını da çox sevindirir".

Xarici işlər nazirinin müavini Fariz Rzayev diplomata Çex Respublikasının Milli Günü münasibətilə Azərbaycan Hökuməti adından təbriklərini çatdırıb. Ölkələrimiz arasında 1993-cü il yanvarın 29-da qurulan diplomatik münasibətlərin bu il 30-cu ildönümünün olduğunu diqqətə çatdıran nazir müavini əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

XQ

Təqvim yada salır

# Milli birliyin ədəbi təcəssümü

## *Mirzə İbrahimovun ömür yolu işıqla zülmət arasında nur körpüsüdür*

**Müasir Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan xalq yazıçısı Mirzə İbrahimovun bütün həyat və yaradıcılığı xalqına, torpağına, millətinin xoş gələcəyinə xidmətdən ibarət olub. "Böyük dayaq" romanındakı məşhur monoloq bu mənada Mirzə İbrahimovun həyatdakı məqsəd və mübarizəsinin ən gözəl göstəricisi kimi öz dəyərini həmişə saxlamaqdadır: "Ey mənim xalqım, ey mənim ümidim və pənahım! Ürəyimin istiliyi səndədir, fikrim işığını səndən alır. Həyatımın nəşə və sevincinə səbəb sənsən! Həyat yolunun sürüşkən döngələrində qolumdan tutan, məni yıxılmağa qoymayan sən olmusan".**

Yazıçının həyat yolunun bütün mənzərələrini əks etdirən bioqrafiyasına nəzər saldıqda bu monoloqun məna dərinliyinə heyrət kəsilirsən.

1911-ci il oktyabrın 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı balaca bir kənddə dünyaya göz açan Mirzə hələ çox körpə ikən anasını itirib. Sonra ailə Bakıya gəlib. Burada da tale onların üzünə gülməyib. Az keçmir ki, 8 yaşlı Mirzə aclıq və xəstəlik üzündən atasını və qardaşını da itirir. Taleyin bu qaranlıq döngələrində yaşamaq naminə Balaxanı və Zabratda muzdurluq edib. Sonralar fabrik-zavod məktəbinə daxil olub. Gündüzlər fabrikdə çalışıb, axşamlar məktəbdə oxuyub.



Taleyi onda gətirdi ki, qarşısına, sözün həqiqi mənasında, mərhəmətli insanlar, əsl ziyalılar, yaxşı müəllimlər çıxdı. Hüseyn Əfəndi, İbrahim İbrahimbəyli, Cəmil İbrahimov, Qambay Vəzirov, Mehdixan Vəkilov kimi işıqlı insanlar Mirzə İbrahimovun yolgöstərəni və müəllimləri oldular. Səməd Vurğunun böyük qardaşı Mehdixan Vəkilov Mirzə İbrahimova sözün həqiqi mənasında himayədarlıq edərək onu oxumağa həvəsləndirdi, ruhdan düşməyə qoymadı.

Gənc oğlanın fitri istedada malik olduğu müəllimlərinin də diqqətini çəkdi. O, ötən əsrin 20-ci illərində yaradılan Proletar Yazıçılar Cəmiyyətinə üzv qəbul edildi. Burada Ənvər Məmmədxanlı, Mirvarid Dilbazi ilə tanış oldu. Yaradıcılığa şeirlə başlayan Mirzə İbrahimov dövri mətbuatda yavaş-yavaş dərc olundu. Neft Texnikumunda oxuyub. Sonra iki illik Elmi-Tədqiqat İnstitutunun kurslarında təhsil alıb. Bir müddət Naxçıvanda yaşayaraq çalışıb. "Həyat" pyesini də (1935) elə burada yazıb. Sonra Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil alıb. Cəlil Məmmədquluzadənin yaradıcılığı ilə bağlı "Böyük demokrat" mövzusunda dissertasiyasını müəyyən səbəblər üzündən bir qədər gec - 1941-ci ildə müdafiə edib. Repressiya tufanının qara caynaqları Azərbaycanın hər yerinə sirayət etdiyi bir zamanda Mirzə İbrahimovu Bakıya çağıraraq Azərbaycan Dövlət Opera və Balet Teatrına direktor təyin ediblər. Az müddətdən sonra isə Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi təyin olunan Mirzə İbrahimov Moskvada Stalinlə görüşmüş, Xruşşov, Molotov, Malenkovla söhbət etmişdir. Təbii ki, Mirzə İbrahimov o dövrün nüfuzlu şəxsiyyətlərindən biri sayılırdı. Bəlkə də elə böyük sənətkarı gələcəkdə anbaan izləyən həbs kabusundan bu görüş xilas edib.

İkinci Dünya müharibəsi illərində Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq işləri gedirdi. M.C.Bağırov bu tədbirlə bağlı Mirzə müəllimdən məlumat istərkən aldığı cavabdan qəzəblənmiş, üzünə böhtanlar yağdırmış, onu kapitalist ölkələrinə "satılmış siyasi düşmən" adlandırmışdır. Yazıçılar ürəklərində "heyif Mirzədən" fikirləşsələr də, bu sözləri dilə gətirə bilməyiblər. Hətta iclas salonundan çıxandan sonra da bir müddət ona yaxınlaşıb söhbət etməyə cəsarətləri çatmayıb. Çünki bunu dərhal yuxarıya çatdıra bilərdilər. Beləliklə, Mirzə İbrahimov işdən çıxarılıb. Bir müddət işsiz qalıb. Qələmini yerə qoymadan yazıb–yaratsa da, ailə səksəkədə idi. Hətta Mirzənin pal-paltarını da hazırlamışdılar. Hər an hər şey ola bilərdi.

Görünür, bütün ziyalıları sürgünə göndərmək yuxarılara da çox sərf etmirdi. Bir müddətdən sonra yenidən Mirzə İbrahimova vəzifə veriblər. O, bu dəfə Azərbaycan xalq maarif komissarı kimi çalışmışdır (1942-1946). Bu arada təsis edilən Azərbaycan Elmlər Akademiyasının (1945) ilk həqiqi üzvlərindən biri də Mirzə İbrahimov olmuşdur.

İkinci Dünya müharibəsi zamanı sovet ordusu sıralarında Cənubi Azərbaycanda olan Mirzə İbrahimov burada "Vətən yolunda" qəzetinin məsul redaktoru vəzifəsində çalışmışdır. O, bu dövrdə səngərlərdə olur, xüsusilə də azərbaycanlı diviziyalarının vuruşduğu döyüş bölgələrinə gedir, əsgərləri qələbəyə ruhlandırırdı.

Azərbaycan Yazıçılar İttifaqının sədri işlədiyi vaxtlarda Mirzə İbrahimov eyni zamanda respublika Nazirlər Sovetinin sədr müavini olmuşdur. Lakin bu arada filosof Heydər Hüseynovla bağlı müsbət xasiyyətnamə verməsi yuxarıların xoşuna gəlməmiş və bu da növbəti zərbə almasına səbəb olmuşdur. Doğrudur, Stalin vəfat etdikdən sonra Xruşşov dövründə bir qədər mülayimləşmə başlayır. Həmin vaxt Mirzə İbrahimov respublika Ali Soveti Rəyasət Heyətinin sədri seçilir (1954-1958), dalbadal keçirilən qurultayların iştirakçısı və büro üzvü olur. Kitabları çap edilir, dramları tamaşaya qoyulur.

Milli düşüncənin boğulduğu illərdə dilimizin dövlət dili olması, dövlət idarələrində dərhal Azərbaycan dilinə keçilməsi sahəsindəki fəaliyyəti Mirzə İbrahimova baha başa gəldi. Azərbaycan dilini bilməyənlər Mirzə müəllimi "azğın, satqın, millətçi" kimi töhmətləndirərək cəzalandırdılar. Onu dərhal tutduğu vəzifədən - Ali Sovetin sədrliyindən azad etdilər. Yenə işsizlik, yenə xoflu görüntülər, mənəvi işgəncələr, qorxulu gecələr... Mirzə İbrahimova o dövrdə qorxudan yanaşan, salam verən az oldu. Qızı Sevda İbrahimova mənimlə söhbətində o günləri belə xatırlayırdı: "Atamı o gün qoluna girib evə ötürən yalnız tanınmış jurnalist Nəsir İmanquliyev olub. Atam uzun müddət Nəsir müəllimin xeyirxahlığından, geniş ürəyindən bizə danışardı. Kaş, Mirzə İbrahimov bu gün müstəqil respublikamızda doğma dilimizin rəsmi dil kimi status qazanmasını görəydi".

1959-cu il iyulun 6-da Azərbaycan KP MK-nın növbədənkənar plenumu çağırılaraq tələb olunmuşdu ki, Mirzə İbrahimov mətbuatda çıxış edərək səhvlərini boynuna alsın, üzr istəsin. Böyük yazıçı isə ona olan haqsızlığı belə cavablandırmışdı: "Dil olmasa, xalq ölüb gedər, yaşaya bilməz. Ağlı başında olan kəs doğma dilini qorumalıdır".

Zaman ötdü, tündləşmiş siyasi həyatda bir qədər durulma əmələ gəldi. Mirzə İbrahimov yenidən Yazıçılar İttifaqının sədri seçildi. İstedadlılara, ehtiyacı olanlara, mənzilsiz yazıçılara, şairlərə xüsusi qayğı və diqqət göstərdi. Mirzə İbrahimov üç dəfə müxtəlif vaxtlarda Yazıçılar İttifaqına rəhbərlik edib. Hər dəfə də hökumət tərəfindən aldığı zərbələrə görə vəzifədən azad olunub. Növbəti bir zərbə isə Nəsiminin yubileyi ilə bağlı olmuşdur. Nəsiminin yubiley komissiyasının iclası zamanı Moskvadan zəng edərək deyirlər ki, tədbir olmasın, çünki Nəsimi türkmən yazıçısıdır. Mirzə İbrahimov isə tarixi faktlarla Nəsiminin Azərbaycan şairi olduğunu nəinki sübut edir, hətta həmin yubiley Moskvada Böyük Teatrda keçirilir. Lakin bu xidmətin "mükafatı" olaraq Bakıya qayıdan kimi Yazıçılar İttifaqının sədri vəzifəsindən azad edilir. Maraqlıdır ki, hər bir işsizlik xaosundan sonra yazıçıya ya vəzifə verilirdi, ya da fəxri ad, mükafat, daha başqa töhfələr. Mirzə müəllim işıqla zülmətin arasında qalmışdı.

Ədəbi yaradıcılığa ötən əsrin əvvəllərindən başlayan Mirzə İbrahimov Azərbaycan ədəbiyyatına bir-birindən maraqlı, məzmunlu əsərlər bəxş edib: "Cənub hekayələri", "Gələcək gün", "Güləbatın", "Xosrov Rüzbeh", "Böyük dayaq", "Pərvanə" və s. Dramaturq kimi də Mirzə İbrahimovun yaradıcılığı zəngindir. "Həyat" onun tamaşaya qoyulan ilk pyesi idi. Mirzə müəllim bir-birinin ardınca müəyyən fasilələrlə "Madrid", "Məhəbbət", "Kəndçi qızı", "Yaxşı adam", "Közərən ocaqlar" adlı pyeslərini yazdı. Həm tamaşaçılar, həm də ədəbi tənqid tərəfindən bu əsərlər yüksək qiymətləndirildi. Mirzə İbrahimovun ədəbiyyatşünaslığın və ədəbi tənqidin zənginləşməsində misilsiz xidmətləri var. "Həyat və ədəbiyyat", "Xəlqilik və realizm cəbhəsindən", "Böyük şairimiz Sabir", "Gözəlliyin qanunları ilə", "Böyük satira ustası" "Əbədi qeydlər", "Tufanlara kömək edən bir qələm" kitabları bu gün də öz ədəbi dəyərini saxlamaqdadır. Xalq yazıçısı Əli Vəliyevin təbirincə desək, Mirzə İbrahimov həqiqətən sənət zirvəsinə inadlı bir yürüşdə idi. Yaradıcılıq həvəsi, istirahət bilmədən gecə-gündüz çalışmaq onun gündəlik iş vərdişinə çevrilmişdi.

Azərbaycan dili uğrunda apardığı mübarizə, milli təəssübkeşlik, üzləşdiyi təzyiqlər, çəkdiyi əziyyətlər unudulası deyildi. Bir şeyə fərəhlənirsən ki, bu gün Mirzə İbrahimovun arzuları çiçək açıb. Ulu öndər Heydər Əliyev həmişə Mirzə İbrahimova diqqət və qayğı ilə yanaşıb. Qara caynaqlardan çox vaxt onu məhz Heydər Əliyev xilas edib. Təsəvvür edin, millətçi damğası vurulan bir şəxsə sonra məhz Heydər Əliyev tərəfindən Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri kimi mühüm vəzifə etibar olundu. Beynəlxalq Nehru mükafatına (1979) layiq görüldü. Sanki Heydər Əliyev Mirzə İbrahimova olan təzyiqlərin, zərbələrin acığını çıxmaq üçün onun 1981-ci ildə Sosialist Əməyi Qəhrəmanı adını almasına nail oldu. 2002-ci ildə Mirzə İbrahimovun anadan olmasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi barədə sərəncam da Heydər Əliyev imzalamışdır.

Yazıçılar Birliyinin sədri Anar öz xatirələrində yazır: "Zamanın bütün mürəkkəbliyi Mirzə İbrahimovun zəngin tərcümeyi-halında əksini tapmışdır. Düşünürəm ki, bu mürəkkəb, sınaqlarla dolu həyat yolu yalnız Mirzə İbrahimovun yaradıcılıq fəaliyyətinin deyil, həm də onun insani müdrikliyinin təşəkkülünə səbəb olmuşdur". Ötən əsrin 80-ci illərində Azərbaycan və Ermənistan ziyalılarının Moskvada Mixail Qorbaçovun sədrliyi ilə keçirilən görüşü çoxumuzun yadındadır. Ermənilər çıxış edərək ünvanımıza nələr söyləyirdilər... Sanki bu görüş qəsdən təşkil olunmuşdu ki, erməni "ziyalıları" bizi söysünlər, təhqir etsinlər, istədikləri şəri atsınlar, böhtan yağdırsınlar, bir sözlə, bizi borclu çıxarsınlar. Mirzə İbrahimovun o toplantıda rəqiblərinin ünvanına dediyi ilk söz qurbağa gölünə atılmış daşa bənzədi: "Yunan əsatirlərinin birində deyilir ki, Allah adamı bədbəxt etmək istəyəndə əvvəlcə onun ağlını alır..." O axşam Mirzə müəllim ürəyimizdən tikan çıxartdı, çoxumuzu şok vəziyyətindən qurtardı.

Filologiya sahəsində milli elmi kadrların hazırlanmasında böyük işlər görmüş Mirzə İbrahimov ömrünün sonunadək Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Onun əsərləri dünya xalqlarının dillərinə dəfələrlə tərcümə edilmişdir. Əsərləri əsasında bədii və sənədli filmlər çəkilmişdir.

1993-cü ildə 82 yaşında Bakıda dünyasını dəyişən Mirzə İbrahimov Fəxri xiyabanda torpağa tapşırılıb. İşıqla zülmət arasında ötən ömrün nuru əbədidir. Bu işıq dünənlə bu günü birləşdirən körpüdür, açılan sabahlarımızdır...

***FLORA XƏLİLZADƏ,***
***Əməkdar jurnalist***

İdman

**İdmanda qadınların mövqeyi həmişə mübahisəli olub. Qədim dövrlərdə onlara Olimpiya Oyunlarında, ötən əsrlərdə isə bir sıra idman növlərində mübarizə aparmağa icazə verilmirdi. Qadınlar indi demək olar ki, bütün idman növlərində yarışsalar da, lakin yenə də hüquqlarının pozulduğu hiss olunur. Son illər Olimpiya Oyunlarında da gender bərabərliyinin təmin olunması istiqamətində böyük işlərin aparılması da buna sübutdur.**

# Güc idman növlərində gender bərabərliyi




### Olimpiya Oyunlarında dəyişiklik...

Ötən Olimpiada – Tokio Oyunlarında iştirak edən idmançıların 48 faizi qadınlardan ibarət idi ki, bu da rekord göstəricidir. Məsələn, boks, ağırlıqqaldırma, güləş kimi idman növlərində çəki dərəcələrinin qadınların xeyrinə dəyişməsi mövqeyimizi xeyli zəiflədir. Elə boksu götürək. Əvvəlki Oyunlarda kişi boksçular 13 çəki dərəcəsində yarışırdılarsa, artıq Paris Olimpiadasında 7 çəki dərəcəsi üzrə iştirak edə bilərlər. Bu boşluğu qadınlarımız doldurmalıdır. Dünya çempionatında isə əvvəlki kimi, yenə də kişilər 13 çəki dərəcəsində yarışırlar. Məsələn, 86 kiloqram çəki dərəcəsində dünya çempionluğunu qazanan Alfonso Dominqes həmin çəkinin Olimpiya Oyunlarında olmaması səbəbindən digər çəkidə mübarizə apararaq Oyunlara lisenziya qazanmalıdır. Elə bu il Avropa çempionatında bu halın mənfi təzahürü özünü göstərdi. İdmançımız Olimpiya çəkisi olan 92 kiloqramda uğursuz çıxış etdi. Təəssüf ki, qadınların xeyrinə dəyişdirilən çəki dərəcələri komandamızın uğurlarına mənfi təsir edəcək.




### Qızlar, idmana gəlin

Azərbaycanda güc idman növlərinin nəticələrinə nəzər saldıqda, gender bərabərliyi baxımından onun o qədər də ürəkaçan olmadığını görürük. Bunu da etiraf etmək lazımdır ki, cəmiyyətdə belə bir fikir formalaşıb ki, bəzi idman növləri yalnız kişilər üçündür.

Güc idman növlərinə qızların cəlb edilməsi istiqamətində mütəmadi işlər aparılsa da, zərif cinsin nümayəndələrinin zallara axını zəifdir. Məşqçilərimiz orta məktəblərə gedib uşaqlar, onların valideynləri ilə söhbətlər aparırlar. Valideynlər qızlarının əzələlərə ehtiyac duymadığını bildirir, onların güclü, qüvvətli yetişməsində maraqlı olmadıqlarını deyirlər. Mütəxəssislərimiz foto və videolarda qızların necə işlədiyi, hansı nəticələrə nail ola biləcəyini göstərməyə çalışır, valideynlərə stereotiplərin mifdən başqa bir şey olmadığını başa salırlar. Müxtəlif idman növləri üzrə komandaların nəticələrinə nəzər saldıqda, bu işin dövrümüzün tələblərinə cavab vermədiyi aydın olur.

### Legionerlər öndədir

**Güləş üzrə gənclərdən ibarət yığmanın baş məşqçisi Rövşən Umudov Azərbaycanda bu növ üzrə ilk qadın təmsilçilərimizin legioner idmançı olduğunu bildirdi:**

–Komandamıza qızların cəlb olunmasına legioner güləşçilərdən başladıq. Müəyyən müddətdən sonra həftəsonu maarifləndirici roliklər və digər tədbirlər vasitəsilə təbliğatlar aparıldı. Məşqçilər məktəblərə gedir, güləşə marağı olan qızları zala dəvət edərək burada məşğul olurdular. Milli idman növümüzə qızlarda maraq oyatmaq üçün onların titullu güləşçilərdən biri olan Mariya Stadniklə görüşünü təşkil edirdik. Onun parlaq karyerası, medalları ilə bağlı məlumatlar, videoçarxlar nümayiş etdirilirdi. Qızların güləşə cəlb edilməsi çətinliklər yaratsa da, bu iş mütəmadi davam edir və düşünürəm ki, artıq bəhrəsini verir. Ardıcıl tədbirlərin həyata keçirilməsi yeniyetmələr və gənclərdən ibarət komandalarımızda istedadlı güləşçilərin yetişməsinə səbəb olub. 23 yaşadək qızlardan ibarət yığmamızda güclü güləşçilər var. Avropa və dünya birinciliklərində həmişə medallarımız olur. Jalə Əliyeva Avropa çempionatının gümüş mükafatçısı, İslam Oyunlarının qalibidir. Səbinə Əliyeva Avropa çempionatında 3-cü yeri tutub. Gültəkin Şirinova, Elnurə Məmmədova, yeniyetmələr arasında dünya, Avropa birincisi Ruzana Məmmədova kimi perspektivli güləşçilər yetişir.

Bununla belə, Olimpiya Oyunlarının güləş yarışlarında indiyədək yalnız legionerlər Azərbaycanı təmsil edərək uğurlar qazanıblar. Federasiyalarla yanaşı, digər qurumlar, məsələn uşaq gənclər və idman məktəbləri öz geniş imkanlarından istifadə etməklə qızların güləşə cəlb olunmasında mühüm rol oynaya bilərlər. Orta təhsil müəssisələrindən kütləvi şəkildə qızların güləş zallarına cəlb edilməsi yaxşı effekt verə bilərdi.

**Rövşən Umudov Gəncə İdman Liseyinin bu sahədə fəaliyyətini nümunə kimi göstərdi:**

– Məktəbin zalında hazırda 20-25 güləşçi qız məşğul olur. Gültəkin Şirinov da bu idman ocağının yetirməsidir. Hər regiondan 1-2 qız yığmaya düşsə, qızlar arasında bu idman növünün yüksək inkişafına nail ola bilərik.

Bəli, məşqçinin sözlərinə onu da əlavə etmək doğru olardı ki, elə klub və cəmiyyətlərimiz də bu sahənin inkişafına mühüm töhfələr verə bilərlər. Yetər ki, cəmiyyətdə insanların fikirlərinə, düşüncələrinə təsir imkanlarını genişləndirə bilək.

**Haşiyə:** Qızların idmana, özü də insanda inam yaradan, iradəsini möhkəmləndirən, onların həm mənəvi, həm fiziki cəhətdən sağlam yetişməsinə zəmin yaradan güc idman növlərinə cəlb etməklə nə qazanırıq? Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında kişilərlə yanaşı, qadınların da ölkəmizi yüksək səviyyədə təmsil etməsinə, Azərbaycanın idman imicinin yüksəlməsinə xidmət edən yeni nəsil idmançılar yetişdirəcəyik. Ən əsası isə güclü, möhkəm iradəli, heç bir fanatizmə uymayan, həmişə öndə getməyə iradəsi, cəsarəti olan Ana, Qadın tərbiyə etməklə yenilməz yeni nəsil qazanacağıq.

***Leyla QURBANOVA***
***XQ***

# Ölkəmizdə süni almaz da istehsal ediləcək

**Süni almaz istehsalı üzrə müəssisənin Ələt Azad İqtisadi Zonasında yaradılması nəzərdə tutulur. Bu müəssisənin fəaliyyətə başlaması ilə Azərbaycan üçün ənənəvi olmayan sektorun təməli qoyulur.**

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC), "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (ASC) və Hindistanın "Devngi Innovations LLP" şirkəti arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasında da əsas məqsəd Azərbaycan–Hindistan tərəfdaşlığı əsasında ölkəmizdə sintetik (süni) almaz sənayesi, təbii almaz emalı infrastrukturunun qurulması imkanlarının öyrənilməsi, birgə şirkətin yaradılması və fəaliyyətinin təşkil edilməsidir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatında bildirilir ki, Anlaşma Memorandumu müasir nəqliyyat-logistika infrastrukturuna malik olan ölkəmizin əlverişli coğrafi mövqeyi iqtisadiyyatın ən müxtəlif sahələrində beynəlxalq əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə imkan verir. Bu xüsusda dünyada sintetik almaz istehsalı sahəsində aparıcı ölkə sayılan Hindistanla əməkdaşlıq şəraitində yeni istehsal infrastrukturunun qurulması ölkə iqtisadiyyatı üçün geniş perspektivlər vəd edir.

Mərasimdə təbii və sintetik almazların emalı proseslərinin oxşar olduğu nəzərə alınaraq, Azərbaycanın "Kimberley Prosesi"nə üzv kimi qəbul edilməsi üçün aidiyyəti dövlət qurumlarına müraciət edildiyi və həmin qurumlar tərəfindən prosesə başlanıldığı da vurğulanıb. Qeyd edilib ki, ölkəmizin "Kimberley Prosesi"nə üzvlüyü təsdiqləndikdən sonra təbii almaz emalı sahəsinin qurulması istiqamətində də tərəflərin birgə səyləri ilə müvafiq addımların atılacağı nəzərdə tutulub.



Xatırladaq ki, Hindistanın "Devngi İnnovations LLP" şirkəti sintetik almaz sənayesində geniş təcrübəyə malik olmaqla, CVD (kimyəvi buxarçökmə texnologiyası ilə yetişdirilən sintetik almazlar) almazlarının istehsalçısıdır.

***XQ***

Flora Xəlilzadə – 70

# Qələmlə qazanılan nüfuz və şöhrət

**Dünən Azərbaycan Mətbuat Şurasında tanınmış qələm sahibi, Əməkdar jurnalist Flora Xəlilzadənin anadan olmasının 70 illiyi münasibətilə qurumun Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə toplantı keçirildi.**




Yubiley mərasimini giriş sözü ilə açan AMŞ sədri Rəşad Məcid ömrünün və yaradıcılığının yetkinlik yaşına çatmış yazıçı-publisisti səmimi təbrik edərək onun yarım əsri əhatə edən fəal və səmərəli yaradıcılığına nəzər saldı. O bildirdi ki, 1977-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirmiş həmkarımız sonrakı illərdə “Azərbaycan təbiəti” və “Azərbaycan qadını” jurnallarında, “Azərbaycan müəllimi” və “Azərbaycan” qəzetlərində müxtəlif vəzifələrdə çalışıb. Flora xanım uzun müddət İctimai Televiziyada müəllif layihəsi rəhbəri, “Yadigarlar” verilişinin aparıcısı olub.

Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü olan istedadlı, yurdsevər və çalışqan yazar hazırda Azərbaycan Televiziyası (AzTV) ədəbi-dram verilişləri baş redaksiyasını baş redaktoru, bədii şura üzvüdür. Çoxsaylı, müxtəlif janrlı və aktual mövzulu yazının müəllifinin 20-dək publisistik kitabı işıq üzü görüb. Bütün bunlar ona geniş oxucu-tamaşaçı dairəsi, populyarlıq və yaradıcılıq nüfuzu qazandırıb. Flora Xəlilzadənin çoxillik səmərəli fəaliyyəti və milli jurnalistikamızın inkişafında xidmətlərini dövlətimiz də yüksək qiymətləndirib. O, “Əməkdar jurnalist” fəxri adına və “Şöhrət” ordeninə layiq görülüb.

Məclisdə çıxış edən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli, Medianın İnkişafı Agentliyinin əməkdaşı Pərvanə İbrahimova, Türkiyə İnternet Media Birliyinin rəhbəri Süleyman Basa, AMŞ Ahıl Jurnalistlər Məclisinin sədri, “Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, ədəbiyyatşünaslar – Əsəd Cahangir və Esmira Fuad, şairə Kəmalə Abıyeva, yazıçı Yunus Oğuz, BDU jurnalistika fakültəsinin dosenti Qərənfil Dünyaminqızı, AMŞ İdarə Heyətinin üzvləri – ATV prezidentinin müşaviri Səadət Məmmədova, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, jurnalist Aida Eyvazlı və AzTV “Mədəniyyət” kanalının direktor müavini Bəhruz Niftəliyev yubilyarı səmimi təbrik etdilər, onun milli jurnalistikamıza, bütövlükdə, milli-mənəvi dəyərlər sisteminə xidmətlərindən, peşəkar qələm sahibi kimi samballı və məhsuldar yaradıcılığından, fəal ziyalı mövqeyindən ətraflı söz açdılar.

Məclisdə AMŞ sədri Rəşad Məcid yubilyara qurumun yubiley plaketini təqdim etdi, həmkarları onu gül dəstələri və xatirə hədiyyələri ilə təbrik etdilər.

Sonda Flora Xəlilzadə iştirakçılara, keçdiyi ömür yoluna və yaradıcılığına verilən dəyərə, səmimi təbriklərə görə təşəkkürünü bildirdi.

**T.RÜSTƏMLİ**
**XQ**

# Mahnılarımız haqqında demək istədiklərim

## Bir mahnının sözlərini neçə şair yaza bilərmiş?

**1989-cu ilin iyun ayı idi. Fəxri xiyabanda dünya şöhrətli sənətkarımız Rəşid Behbudov dəfn olunurdu. “İynə atsan, yerə düşməzdi” ifadəsi sanki həmin mərasim üçün deyilmişdi. Səsgücləndirici ustadın ən yaxşı ifalarından birini – “Ey Vətən!” mahnısını hər yana yayırdı. Köhnə dostum, şair Oqtay Rza ilə yanaşı dayanmışdıq. Oqtay müəllimi tabutun məzara qoyulmasından daha çox müğənninin “doya bilmirəm…” deyə fəryad qoparan səsi sarsıdırdı. Şair ağlayırdı.**



Vəziyyəti bir qədər yumşaltmaq üçün dedim ki, Oqtay müəllim, mən dəfn olunanda da bu mahnının səsləndirilməsini vəsiyyət edəcəm. Dedi bəlkə sən çox yaşayıb Vətəndən də, dünyadan da doyub sonra vəfat edəcəksən? Dərhal da əlavə elədi ki, Mirzə (o, əli qələm tutanların hamısına Mirzə deyirdi) fikrimi çaşdırma, Dəmir Gədəbəylinin söz ustalığının sehrinə köklənmişəm. Belə mahnı mətni yazdığına görə Dəmirə eşq olsun!

Ondan sonra Dəmir Gədəbəylini hər görəndə Oqtay müəllimin “Eşq olsun!” ifadəsini ürəyimdə təkrarlayırdım. Amma…

2021-ci il oktyabrın 22-də “Yeni Müsavat” onlayn ictimai-siyasi qəzetində “Prezidentin Zəngilanda dinlədiyi “Ey Vətən” mahnısının tarixçəsi” adlı məqaləni oxuyanda (https://www.musavat.com/news/prezidentin-zengilanda-dinlediyi-ey-veten-mahnisinin-tarixcesi” sadəcə çaşdım. Orada qeyd edilirdi ki, Prezident İlham Əliyev Zəngilan səfəri zamanı Azərbaycan radiosunda İlhamə Qasımovanın ifasında səslənən “Ey Vətən” mahnısını dinləyib. Sözügedən görüntüləri sosial şəbəkədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva paylaşıb. Həmin anlar istər sosial şəbəkə istifadəçiləri, istərsə də media tərəfindən maraqla qarşılanıb və tirajlanıb”.

Çox gözəl. Amma, “Prezidentin Zəngilanda dinlədiyi “Ey Vətən” mahnısı necə yaranıb? Tarixçəsi necədir, müəllifləri kimlərdir?” suallarının cavabında mahnının sözlərinin müəllifi Dəmir Gədəbəyli yox, başqa adamın olduğu göstərilirdi. “Bu mahnı Azərbaycana həsr olunmuş vətənpərvərlik mövzusunda yazılan ən dəyərli əsərlərdən biridir. “Ey Vətən” adı ilə tanınan bəstənin əsl adı “Nəğmə dolu bir ürəyəm”dir, mahnının sözləri Aslan Abdullayevə, musiqisi Elza İbrahimovaya məxsusdur”.

Sonra mən “Yeni Müsavat”ın səhv edə biləcəyini düşünərək, bir çox digər mənbələrə də baxdım. Məlum oldu ki, bu mahnının sözlərinin Dəmir Gədəbəyliyə aid olduğu cəmi beş yerdə göstərilir. Altı yerdə Aslan Aslanovun, ondan çox mənbədə isə Aslan Abdullayevin müəllifliyi “təsdiq olunur”. Sadəcə, dəhşətdir. Son yarım əsrdəki musiqi mədəniyyətimizin ən dəyərli nümunələrindən birinin taleyi bu qədər qarışıq və qaranlıqdırsa, onda biz əvvəlki əsərlər barədə necə qətiyyətlə danışa bilərik?

Yəqin ki, indi bu işə məsul olanlardan (daha doğrusu, məsul olmalı şəxslərdən) kimsə mənə irad tutacaq və ya bu qeydlərdən narazılıq edəcək. Ona görə də rastlaşdığım mənbələrin hamısını xatırlatmasam da, hər müəllifə aid bir mənbəni göstərmək istəyirəm. Məsələn, mahnının sözlərinin müəllifi “Facebook”dakı “Reshid Behbudov” səhifəsində Aslan Aslanov, “Min bir mahnı” elektron resursunda Dəmir Gədəbəyli, Modern.az.da və YouTubedə isə Aslan Abdullayev kimi göstərilir. İnanmırsınızsa, baxın.

Sonra da, görkəmli şairimiz Nəbi Xəzrinin oğlu Arzu Babayev umu-küsü edir ki, müğənni Zamiq Hüseynovun Tofiq Quliyevdən oxuduğu “Pəncərəmə qondu çiçək” mahnısının sözlərinin müəllifinin yanlış təqdimatı bir daha müəllif hüquqlarının pozulması məsələsini gündəmə gətirdi.

Qeyd edək ki, verilişdə səslənən həmin mahnının sözləri Nəbi Xəzriyə məxsus olsa da, yanlış olaraq Zeynal Cabbarzadənin adı çəkilib.

Bundan başqa, Arzu Babayev əlavə edir ki, atasının yazdığı və Aşıq Hacalı Hacıyevin bəstələdiyi “Nar ağacı, nar çiçəyi” şeirində 1-ci bəndin 2-ci misrası, 3-cü bəndin isə 2-ci və 4-cü misraları tamamilə təhrif olunub. Şairin oğlu ondan narazıdır ki, Aşıq Əvəzxan bu mahnıya müraciət etdikdə, nəqəratın 2-ci misrasını dəyişərək Nəbi Xəzrinin lirikasına və bu şeirin poetikasına yad olan “nə gözəldir yar göyçəyi ” ifadəsini əlavə edib. Arzu Babayev Nəbi Xəzrinin başqa şeirlərinin də təhrif olunduğunu xatırladır və narahatlığını dilə gətirir. Ən başlıcası isə o, müğənnilərdən və televiziyaların musiqi verilişləri departamenti rəhbərlərindən xahiş edir ki, “Min bir mahnı” kitabından istifadə etməsinlər. Çünki bu mahnılar bizim musiqi xəzinəmizdir, bu xəzinənin gələcək nəslə doğru şəkildə çatması üçün hamımız məsuliyyətli olmalıyıq.

Musiqi mədəniyyətimizin təbliğində və təqdimatında bu qədər yanlışlıqlar olduğu halda, mən də götürüb bayağı mahnılar, onları oxuyanlar, üstəlik, televiziya ekranına çıxaranlar barədə nə isə yazmaq istəyirdim. “Səhər saat yeddidə, qırmızı nolyeddidə” kimi sözlərlə başlayan mahnılar baş alıb gedir. Çox təəssüf ki, televiziya kanallarındakı musiqi proqramlarına qətiyyən nəzarət edilmir. Elə adamları “tanınmış müğənni” epiteti ilə təqdim edirlər ki, tamaşaçı bilmir ağlasın yoxsa gülsün.

Yadıma düşmüşkən, dövri mətbuatda “Teleradio efirlərimizdə qadağan olunmalı mahnılar var” (https://www.baki-xeber.com), “Musiqi mədəniyyətimizə kölgə salan bayağı mahnılar” (http://www.anl.az) , “Zorakılığı təbliğ edən mahnılar qadağan olunmalıdır” (https://sherg.az › medeniyyet) kimi onlarca məqalə verilsə də, vəziyyət nəinki düzəlmir, tamamilə əksinin şahidi oluruq.

Amma bir təsəllimiz var ki, Azərbaycan Televiziyasının Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin köməkliyi ilə həyata keçirdiyi “Muğam” televiziya müsabiqəsinin münsiflər heyətinə Azərbaycan Yazıçılar Birliyinin nümayəndəsi, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi kimi mütəxəssis də daxildir və biz onun gənc istedadların ifasındakı söz, ifadə və tələffüz səhvlərini peşəkarcasına dilə gətirməsindən məmnunuq.

Arzu edərdik ki, bayağı mahnıları və qeyri-peşəkar “müğənni”ləri efirə gətirən adamlara da İlqar Fəhmi kimi bir mütəxəssis nəzarət etsin, tövsiyə versin ki, milli sərvətimiz olan musiqi mədəniyyətimizi bu fəsadlardan qoruya bilək.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, bu gün təbiətin səs vermədiyi bəzi soydaşlarımız mikrofonun, fonoqramın köməyi ilə “müğənni olurlar”. Daha doğrusu, müğənniyə çevrilirlər.

Yeri gəlmişkən, “525-ci qəzet”in 21 oktyabr 2023-cü il tarixli nömrəsində həmkarımız Tofiq Abdullayevin “Mənəvi sərvətə çevrilmiş mahnılar: onları təhrifdən qoruyaq!” adlı dəyərli məqaləsi verilmişdir. Mikrofon və fonoqram məsələsi orada daha konkret şəkildə qaldırılmışdır. Odur ki, bu sətirləri həmin yazıdakı bəzi müddəalarla tamamlayırıq:

“Onu da deyək ki, yalnız mikrofonla, fonoqramla “nəfəs alan”, bunları özü üçün, necə deyərlər, “oksigen aparatı” hesab eləyən ifaçılardan sənətkar olmaz. Kimin kim olduğu ən çox canlı ifalarda görünür. Tələbkar tamaşaçının, dinləyicinin kinayə ilə dediyi: “Mikrofonla, fonoqramla elə nənəm də oxuyar” sözləri təsadüfü yaranmayıb. Odur ki, özünə “sənətkar” deyib, mikrofondan, fonoqramdan ikiəlli yapışanlar bu eyhamdan, bu kinayəli sözdən nəticə çıxarsalar, yaxşı olar.

… Bu məqamda maraqlı bir ifadə yadıma düşdü: Mikrofonun təzə çıxan vaxtlarıymış. Bir gün cavan sənət yoldaşlarından biri sevinə-sevinə aşıq Şakir Hacıyevə yaxınlaşıb deyir: “Ustad, sənə bir şad xəbər verim! Eşitmişəm, lap təzəlikcən yaxşı bir aparat çıxıb, bir balaca ağzına yaxınlaşdıranda səsi xeyli artırır, gücləndirir”.

Şakir acı-acı gülümsəyir, başını yelləyib deyir: “Bunun harası şad xəbər oldu? Day deynən ki, əsl sənətin evi yıxıldı də...”

Aşıq Şakirin nigarançılığı əbəs deyildi. Necə ki, bir vaxtlar Koroğlu demişdi: “Tüfəng çıxdı, mərdlik getdi, ay-haray!..”

**P.S.** Bu il aprelin 6-da Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin keçirdiyi “Mahnılarımız monitorinq aynasında” adlı hesabat tədbirində qeyd edilmişdi ki, “Bayağı mahnılar milli-mənəvi dəyərlərimizə xələl gətirir”.

Tədbirdə Monitorinq Mərkəzi Müşahidə Şurasının üzvləri, dilçi alimlər, dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, ziyalılar, televiziya kanallarının nümayəndələri və aparıcılar, tanınmış incəsənət xadimləri və digər qonaqlar bu sahədəki çoxsaylı problemlərdən söz açmışdılar. Amma, nəticə yoxdur ki, yoxdur.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Asəf Zeynallının xatirə günü

# Son əsərini divara yazan bəstəkar

## Qısa ömrün zəngin irsi

**Azərbaycanın ilk ali təhsilli bəstəkarı, Azərbaycan simfonik musiqisinin və romans janrının müəllifi Asəf Zeynallı cəmi 23 il yaşayıb. O, qısa ömründə yaradıcılıq uğurları ilə musiqi tarixində silinməz izlər qoyub.**



Ailəsi Dərbənddən Bakıya köçəndə Asəf yeniyetmə olub. Anası onu sonradan oğlunun adını daşıyacaq Orta İxtisas Musiqi Məktəbinin direktoru Üzeyir Hacıbəylinin yanına gətirib. Üzeyir bəy Asəfin musiqi alətində ifasını dinləyib: “Bu ki əsl istedaddır”, – deyərək onu məktəbə qəbul edib. Asəf nəfəs alətləri sinfində oxuyub. Özünün ilk musiqi əsərini – “Truba üçün marş”ı da burada bəstələyib və ifa edib.

1923-cü ilin martında Bakı İşçi klubunda Azərbaycan musiqi məktəbləri şagirdlərinin ilk baxış konserti olub. Bu barədə “Kommunist” qəzetinin 5 aprel 1959-cu il tarixli sayında dostu Əfrasiyab Bədəlbəyli Asəf Zeynallının 50 illiyi münasibəti ilə yazıb: “Konsertin birinci hissəsində azyaşlı uşaqlar, ikincidə isə böyüklər çıxış edirdilər. Bəs, Asəf niyə heç birində yoxdur? – deyə yerbəyerdən suallar səslənirdi. Kimsə “Üzeyir bəy öz işini yaxşı bilir”, – dedi. Aparıcı “Truba üçün pyes”, musiqisi Asəf Zeynallı, ifa edir müəllif”, – deyə elan edəndə hamı təəccübləndi. Onu heç kim hələ bəstəkar kimi tanımırdı, bunu Üzeyir bəy kəşf etmişdi. Truba o vaxta qədər, əsasən, hərbi marş aləti idi, hamı belə bilirdi. Asəfin trubada “Rast” muğamı əsasında bəstələdiyi musiqi təranəsindən tamaşaçılar böyük zövq aldılar”.

Təəssüf ki, səhhəti ilə əlaqədar həkimlər ona nəfəs alətində çalmağı qadağan ediblər və Asəf violonçel sinfinə keçib, məşhur violonçel ustası M. Rastropoviçin atası Leopold Rastropoviçdən dərs alıb. 1926-cı ildə Musiqi Texnikumu ilə konservatoriya birləşdiriləndə Asəf orkestr sinfinə daxil olub. Az müddət sonra isə Üzeyir bəyin məsləhəti ilə onu bəstəkarlıq şöbəsinə keçiriblər. 1931-ci ildə Asəf Azərbaycan Dövlət Konservatoriyasını bitirib.

Sonralar Asəf Zeynallının təşəbbüsü ilə Moskvada və Leninqradda Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib. Tənqid-Təbliğ Teatrının musiqi bölməsinə rəhbərlik edən Asəf Zeynallı dövrünün tanınmış ədiblərinin tamaşalarına musiqilər bəstələyib. Cabbarlının “Almaz”, “Sevil” dramlarının musiqilərini də o yazıb. Asəf Zeynallı yabançı kampaniyalar zamanı Mikayıl Müşfiqin “Oxu, tar” şeirini müdafiə edərək, yazırdı: “Xalq komissarlarının əsas səhvi budur – anlamırlar ki, bizim bütün mahnı və rəqslərimiz muğamatdan qaynaqlanır, onun tərkib hissəsidir. Tar yeganə alətdir ki, xalq yaradıcılığı və muğamların mahiyyətini düzgün və dəqiq çatdıra bilir. Bizim təbiətən xalqın özünəməxsus olanı müsadirə etmək hüququmuz yoxdur. Tarın ansamblda gərəksizliyi haqqında bəyanatlar tamamilə əsassızdır”.

Tanınmış tarzən Nazim Kazımov “Asəf Zeynallı” kitabında yazır: “Onun bəstəkarlıq yaradıcılığında mühüm yer tutan vokal əsərləri içərisində romans və mahnılar Avropa klassik vokal forması ilə xalq musiqimizin lad-məqam, melodiya xüsusiyyətlərini əlaqələndirən bədii nailiyyətlərdir”.

Asəf Zeynallı Hüseynqulu Sarabski və Bülbüllə dostluq edib. Hətta Bülbül Azərbaycan musiqi folkloru nümunələrinin toplanması üçün onu özü ilə birlikdə Qarabağa aparıb. Orada qarın yatalağına tutulan gənc bəstəkar müalicə üçün Bakıya qayıtmalı olub. Həyatının söndüyünü duya-duya xəstəxana palatasının divarına “Bakı” adlı son simfoniyasını yazır və qardaşından həmin əsərin divardan kağıza köçürülməsini xahiş edir. Təəssüf ki, onun son vəsiyyəti, nədənsə, yerinə yetirilmir.

Asəf Zeynallı 1932-ci il oktyabrın 27-də xəstəxanada dünyasını dəyişib. Qısa ömür sürməsinə baxmayaraq, Asəf Zeynallı milli musiqi sənətimizdə dəyərli irsi ilə əbədiyyət qazanıb. Onun “Ölkəm”, “Sərhədçi”, “Çadra”, “Sual”, “Seyran” romansları milli vokal musiqimizin inciləridir. İstedadlı bəstəkar piano üçün “Uşaq süitası” silsiləsi, “Çahargah” pyesi, violino və piano üçün “Muğamsayağı”, 2 fuqa, simfonik orkestr üçün “Fraqmentlər”, teatr tamaşalarına musiqi, xalq mahnıları işləmələrinin müəllifidir. O, Azərbaycan musiqi folklorunun toplanıb nota köçürülməsi və işlənməsi sahəsində də xeyli iş görüb. Asəf Zeynallı “İbtidai not savadı” adlı dərslik tərtib edib, "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan musiqi tarixində uşaq musiqisi repertuarının əsasını qoyub və s.

Həyatdan vaxtsız köçmüş bəstəkarın irsi yaşayır, xatirəsi isə əbədiləşdirilib. Bakı Musiqi Kolleci və paytaxt küçələrindən biri nakam bəstəkarın adını daşıyır.

***R.QURBANLI***
***XQ***

Bizə yazırlar

# Kitabları sevən və sevdirən insan



**Yazıçılar, alimlər kimi, kitabxanaçılar da oxucunun bəsirət gözünü açır, onun mənəvi dünyasına işıq salırlar. Onlardan biri də bizim Qax rayonundakı Cəfər Cabbarlı adına Kitabxananın direktoru Güllü Əhmədovadır.**

Hələ orta məktəb illərində bədii kitablara olan sonsuz marağı ilə Güllü xanım yaşıdlarından seçilib. Arzusu filoloq olmaq idi. Ancaq ilk cəhdində ali məktəbə qəbul ola bilməyəndə rayonda yeganə “Kitab evi” mağazasında satıcı işləməyə başlayıb. Elə bu kitab dünyasının cazibəsi ilə də peşə seçimində dəyişiklik edərək, kitabxanaçılığa üstünlük verib və ADU-nun (indiki BDU) eyni adlı fakültəsinin qiyabi şöbəsinə daxil olub.

**Düz 30 il əvvəl kitabxanaçılıq fəaliyyətinə başlayan Güllü xanım tez bir zamanda biblioqraf kimi oxucuların sevimlisinə çevrilib. O, ötən günləri yada salaraq dedi:**

– Buna qayğıkeş kitabxanaçılar Nənə Kərimovanın, Zöhrə Mikayılovanın və Biçə Balıyevanın sayəsində nail olmuşam. Sonradan böyük kitabxanaçı, mərkəzləşmiş kitabxana sisteminin direktor müavini oldum, 2004-cü ildən isə direktor vəzifəsində çalışıram.

Kitabxananın kollektivi zamanın çağırışlarına cavab verə bilmək üçün müsabiqələrdə, layihələrdə fəal iştirak edir. 2003, 2005 və 2007-ci illərdə ABŞ səfirliyinin “Regional kitabxana”, Demokratiya Komissiyasının “Kiçik qrant proqramı” layihələrində “Kitabxanaların inkişafı” proqramına qatılaraq uğur qazanıb, öyrəndiklərini təcrübədə tətbiq edirlər. Həmin layihələr sayəsində kitabxanaya pulsuz internet xətti çəkilib, eyni zamanda, orada kompüter kursları və maarifləndirici təlimlər təşkil edilib.

Güllü Əhmədova 2008-ci ildə Moskvada “LİBKOM-2008”də, 2014-cü ildə isə Bakıda kitabxanaçıların beynəlxalq konfransında iştirakını da faydalı hesab edir.

Onun həyatında unudulmaz günlər çox olub. Amma Azərbaycan qadınlarının I qurultayında Ulu öndər Heydər Əliyevlə görüşünü iftixarla xatırlayır. Təcrübəli kitabxanaçı qardaş Türkiyədə keçirilən Ankara Beynəlxalq Sənət Festivalında “Üstün peşəkarlıq medalı” ilə təltif edilib. Rəhbərlik etdiyi kitabxana iki dəfə Mədəniyyət Nazirliyinin “İlin kitabxanası” müsabiqəsinin qalibi olub. Güllü xanım 2020-ci ildə “Hər günə bir şeir”, 2021-ci ildə “Ey söz dünyasının hakimi, Nizami!” və “Rəşadətlə yaşayanlar, ölümü fəth edənlər” müsabiqələrində, “Şəhidlərimizi tanıyaq və tanıdaq”, “Ədiblərimizi bizdən dinləyin” layihələrində də uğurla iştirak edib. O, həm də mətbuat səhifələrində dərc olunan maraqlı yazıların müəllifidir. Bizim qəzetdə, eləcə də “Mədəniyyət” qəzetində, “Mədəni-maarif” jurnalında maraqlı məqalələrlə çıxış edib. “Saflıq çeşməsi Qax” adlı kitab da Güllü Əhmədovanın qələminin məhsuludur.

Bəli, 1906-cı ildə Tiflisdə çıxan “Zakavkazskiy vestnik” qəzetinin Azərbaycan bölməsinin müdiri, qaxlı Həmzət bəy Qabulov–Şirvanskinin evində “Qiraət koması” adı ilə fəaliyyətə başlayan hazırkı rayon mərkəzi kitabxanasının estafeti etibarlı əllərdədir.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan “Şəlalə” qəzetinin redaktoru***

Beynəlxalq həyat

# Azərbaycan–Türkiyə: Yenilməz qardaşlıq nümunəsi

## Sabah qardaş ölkə Cümhuriyyətin 100 yaşını qeyd edəcək



**Dünya tarixində elə qüdrətli xalqlar və millətlər var ki, onlar tarixin müxtəlif mərhələlərində bəşəriyyəti irəli aparan yüksək sivilizasiyalar yarada biliblər. Amma bu, cəmi bir neçə millətə nəsib olub. Tarixdə belə toplumlardan biri qədim və şanlı tarixi olan Türkiyə dövləti və xalqıdır.**

Təqribən min illik dövlətçilik təcrübəsi olan Türkiyə dünyanın orta və yeni əsrlər tarixində təmsil olunduğu böyük bir coğrafi məkanda iqtisadi, mədəni, mənəvi inkişafın üstün istiqamətlərini müəyyən edən, öz dövrünə görə mütərəqqi sayılan idarəçilik sistemi yarada bilib. Bu zaman hər şeyin fövqündə, ilk növbədə milli əxlaqla bərabər, bəşəri və humanist dəyərlər dayanıb.

Bu gün dünyanın ən ünlü alim və siyasətçiləri etiraf edirlər ki, Anadoludan qərbə – Balkanlara və əks istiqamətdə Yaxın və Orta Şərqə doğru geniş bir ərazini tutan Osmanlı dövləti özündən əvvəlki imperiyalardan fərqli olaraq nəzarətində olan torpaqları yağmalamaq niyyətində olmayıb, əksinə, onların mədəni inkişafının və təhlükəsizliyinin qayğısına qalmağa çalışıb.

Biz burada Osmanlını ideallaşdırmaq niyyətindən tam uzağıq, amma onun müsbət cəhətlərini danmaq, inkar etmək mümkün deyil. Konkret misal çəkmək olar. Yəhudilər və ərəblər beş yüz il Osmanlı hakimiyyəti altında olduqları zaman bir dəfə də olsun etnik zəmində vuruşmayıblar. Belə faktlar onlarcadır.

Türk xalqının xoşbəxtliyi həm də ondadır ki, XX əsrin əvvəllərində, yəni yeni tarixin ən kritik dönəmində Osmanlı özünün keçmişinə ehtiram, gələcəyə inam bəsləyərək imperiya iddialarından əl çəkdi, müasir dövrün çağırışlarına uyğun sivil, demokratik dövlətini qura bildi. Qəhrəman və ulu türk xalqı milli istiqlalını qoruyub saxlamaq üçün möhtəşəm Çanaqqala (1915), Meydan (1922) savaşlarını qazandı.

XX əsrin görkəmli dövlət xadimlərindən olan Mustafa Kamal Atatürkün və onun fədakar əqidə və silah yoldaşlarının titanik səyləri sayəsində qurub yaradılan müasir Türkiyə artıq bir əsrdir ki, dünyanın ən sivil və demokratik dövlətlərindən biri sayılır. Bəli, cəmi bir gündən sonra, oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 100 ili tamam olur. Bu, bütün türk dünyası üçün sonsuz qürur mənbəyi olan bir tarixdir.

Qeyd etmək lazımdır ki, 1991-ci il oktyabrın 18-də öz milli suverenliyini bərpa etdikdən sonra ölkəmizi ilk tanıyan xarici dövlət məhz qardaş Türkiyə olmuşdur. AMEA-nın Tarix İnstitutunun Beynəlxalq əlaqələr tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Tofiq Mustafazadə fəxrlə vurğuladı ki, son otuz ildə Azərbaycan–Türkiyə əlaqələri hərtərəfli inkişaf yolu qət edərək olduqca yüksək səviyyəyə çatmışdır.

Professor, həmçinin bildirdi ki. hazırda dünyada ikinci elə bir iki dövlət tapmaq olmaz ki, Azərbaycan ilə Türkiyə qədər bir-biri ilə bu qədər dost, yaxın və qardaş olsun. 44 günlük şanlı Vətən müharibəsində Türkiyə dövləti və xalqı daim yanımızda olmuşdur. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Xoşbəxtlikdən bu gün xalqlarımızın sevimli liderləri cənab İlham Əliyevin və sayın Rəcəb Tayyib Ərdoğanın müdrik rəhbərliyilə Azərbaycan və Türkiyə dövlətləri arasındakı sıx əməkdaşlıq bütün istiqamətlər üzrə güclənir və möhkəmlənir. Heç bir qüvvə bizim qardaşlığımıza xələl gətirə bilməz. Axı biz birlikdə güclüyük!

***Məsaim ABDULLAYEV***
***XQ***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### Respublika İncəsənət Gimnaziyası binasının əsaslı təmiri işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Əlaqələndirici şəxs – Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y. Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod: 805603
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h: AZ88IBAZ38030019441856517211
VÖEN: 1500016711

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.10.2023-cü il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.10.2023-cü il tarixindən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 01.10.2023-cü il tarixindən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" Mərkəzlərindən 01.10.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır);
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 22 noyabr 2023-cü il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 30 noyabr 2023-cü il 11:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 1 dekabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## BİLDİRİŞ

## "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin

### Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

"Türyançay sol sahil kanalının yenidən qurulması" (I mərhələ)-nin təkliflər sorğusu üsulu ilə satın alınması üçün verilmiş tender elanında tender təkliflərinin qiymətləndirməsi meyarları:

Tender təklifinin ödəniş şərti - 10 baldır.

Aşağıdakı redaksiyada oxunmalıdır:

-İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 30 faizdən artıq avans ödənişi tələb edərsə, həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 30 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (30 – X)/30x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

İddiaçılar tenderdə iştirak haqqını – Satınalan təşkilat Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin aşağıda göstərilən hesabına ödəməlidirlər:

VÖEN – 1300300711,
Kod – 805562
H/h – AZ 10 IBAZ 38070019449716100216,
Bank – "Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı
M/h – AZ03NABZ01350100000000002944,
VÖEN – 9900001881,
SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)

***Tender komissiyası***



## BİLDİRİŞ

## "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin

### Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

"Türyançay sağ sahil kanalının yenidən qurulması" (I mərhələ)-nin təkliflər sorğusu üsulu ilə satın alınması üçün verilmiş tender elanında tender təkliflərinin qiymətləndirməsi meyarları:

Tender təklifinin ödəniş şərti - 10 baldır.

Aşağıdakı redaksiyada oxunmalıdır:

- İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 30 faizdən artıq avans ödənişi tələb edərsə, həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 30 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (30 – X)/30x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

İddiaçılar tenderdə iştirak haqqını – Satınalan təşkilat Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin aşağıda göstərilən hesabına ödəməlidirlər:

VÖEN – 1300300711,
Kod – 805562
H/h – AZ 10 IBAZ 38070019449716100216,
Bank – "Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı
M/h – AZ03NABZ01350100000000002944,
VÖEN – 9900001881,
SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)

***Tender komissiyası***



## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

### ağır yüklü avtomobillərin dayanacaq torpaq ərazisinin karbonat materialı ilə doldurulması və kipləşdirilməsi işlərinin (xidmətlərin) göstərilməsi üçün satınalma

## MÜSABİQƏSİ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 10 noyabr 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan – AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Əlaqə telefonu – (+994 12) 599-00-03 (daxili 3704).



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Milli Konservatoriyası

## boş olan ştatlar üçün müsabiqə elan edir:

1. Musiqi tarixi və nəzəriyyəsi fakültəsi üzrə: dekan
2. İfaçılıq fakültəsi üzrə: dekan
3. Etnomusiqişünaslıq kadefrası üzrə: baş müəllim
4. Humanitar fənlər kafedrası üzər: baş müəllim

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 236 (30352) 28 oktyabr 2023-cü il, şənbə

# Özbəkistanda Azərbaycan həftəsi

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə ölkənin Daşkənd və Xarəzm vilayətlərində "Azərbaycan mədəniyyəti və poeziyası həftəsi" keçirilir.**



Həftə çərçivəsində Özbəkistan Dövlət Sənət və Mədəniyyət Universitetində "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" adlı beş dilli ensiklopedik nəşrin təqdimatı və azərbaycanlı sənət adamlarının iştirakı ilə böyük konsert baş tutub.

Tədbir iştirakçıları əvvəl AMM tərəfindən universitetdə yaradılan Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzinə baxıblar. Sonra foyedə Mədəniyyət Mərkəzi tərəfindən təşkil edilmiş Ümummilli lider Heydər Əliyevə, Azərbaycan Prezidenti İlham Əliyevə, ölkənin parlaq Zəfərinə, mədəniyyətinə, ədəbiyyatına həsr edilən foto və kitab sərgisi ilə tanış olublar.

Universitetin rektoru, professor Elmar Şermanov iki qardaş ölkə arasında mədəni əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq bu işdə AMM-nin böyük rolunu qeyd edib. Rektor bu günlərdə Şuşada keçirilən I Türk Dünyası Mədəniyyət Forumunda iştirakından, Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşanın türkdilli xalqların mədəniyyətindəki mühüm rolundan söz açıb.

AMM-nin direktoru S. Abbasov Şuşanın Türk dünyası mədəniyyətində bir körpü rolunu oynadığını qeyd edərək Mədəniyyət Mərkəzi tərəfindən Özbəkistanda Şuşa ilə bağlı həyata keçirilən layihələr haqqında məlumat verib.

Ədəbiyyatşünas alim, tərcüməçi Babaxan Şərif Şuşanın Türk dünyası üçün böyük əhəmiyyətini vurğulayaraq bu nəşrin Şuşa haqqında dəyərli bir mənbə olduğunu və eyni zamanda nəşrin beş dildə hazırlanmasını yüksək qiymətləndirib.

Azərbaycanın Xalq şairi Vahid Əziz Özbəkistan Yazıçılar İttifaqının dəvətilə Özbəkistanda olmasından və poeziya sevərlərlə görüşündən çox böyük məmnunluq hissi keçirdiyini bildirib. Tədbirin bədii hissəsində Azərbaycandan dəvət edilmiş tanınmış xanəndələr – beynəlxalq müsabiqələr laureatları Mirələm Mirələmov, Kamilə Nəbiyeva milli muğam və xalq mahnılarını, aşıq İlham Abdullayev qədim saz havalarını, Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Kövkəb Əliyeva adına "Azərbaycan qızları" rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

## İdman xəbərləri

### Şahmatçımız dünya 3-cüsü oldu

***Misirdə şahmat üzrə 8, 10 və 12 yaşlı oğlan və qızlar arasında dünya birinciliyi keçirilib.***



Azərbaycan şahmatçısı Xaqan Əhməd 12 yaşlılar arasında keçirilən yarışda 8 xal toplayaraq üçüncü yeri tutub. Bu yaş qrupunda digər təmsilçilərimiz Paşam Əlizadə yekunda 3-5-ci yerləri bölüşdürüb. Əlavə göstəricilərə görə şahmatçı 5-ci olub. 8 yaşlı qızların yarışında isə Mehriban Əhmədli beşinci yerdə qərarlaşıb.

### Minifutbol millimizin ilk qələbəsi



***Minifutbol üzrə Azərbaycan millisi dünya çempionatında ilk oyununu keçirib.***

Birləşmiş Ərəb Əmirliklərinin Ras Əl-Xayma şəhərində təşkil olunan yarışda yığma İraq komandası ilə üz-üzə gəlib. Qarşılaşma millimizin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Komandamızın heyətində 16-cı dəqiqədə Mirmehti Rzayev, 28-ci dəqiqədə Elvin Əlizadə fərqləniblər.

Qeyd edək ki, Azərbaycan millisi G qrupunda yer alıb. Komandamız ikinci görüşünü oktyabrın 29-da Misir, növbəti qarşılaşmanı isə ayın 31-də Küveytlə keçirəcək.

### Qadın futbolçularımız qrup lideridir

***UEFA Millətlər Liqasında qadın futbolçulardan ibarət Azərbaycan millisi növbəti oyununu keçirib.***



Yığmamız səfərdə Farer adaları komandası ilə mübarizə aparıb. Klaksvik şəhərindəki "Djupumyru" stadionunda keçirilən oyun təmsilçimizin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Komandamızın qollarını Kristina Bakarandze və Manə Mollayeva vurublar. Beləliklə, xalların sayını 7-yə çatdıran yığmamız yer aldığı qrupun vahid lideri olub.

Qeyd edək ki, yığma növbəti oyununu oktyabrın 31-də "Dalğa Arena"da Monteneqroya qarşı keçirəcək.

### Qahirədə bürünc medal

***Misirin paytaxtı Qahirədə keçirilən dünya seriyalı "WTT Youth Contender" turnirində stolüstü tennisçimiz uğurla çıxış edib.***




Milli komandanın məşqçisi Elnur Hidayətzadənin rəhbərliyi ilə yarışda iştirak edən Mərziyyə Nurmətova qarışıq qoşa turnirində bürünc medal qazanıb. O, yarışda yəmənli Ebrahim Qurbanla birgə mübarizə aparıb.

***L.SABİRQIZI***
***XQ***

## Sənət inciləri

### "Azərbaycan bəstəkarları"

**Görkəmli fırça ustası Vəcihə Səmədova "Azərbaycan bəstəkarları" əsərini 1951-ci ildə ərsəyə gətirmişdir. Rəssamın bu tabloda başlıca məqsədi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin şəxsiyyətinə və milli musiqimizə verdiyi töhfələrə münasibətini bildirmək idi.**



Böyük sənətkarın ətrafında öz yetirmələri olan gənc bəstəkarların təsvir edilməsi onu göstərir ki, Üzeyir bəy vaxtikən gənc musiqiçilərə daim diqqət yetirmiş, onların ən müxtəlif problemlərini həll etməyə çalışmışdır.

Əsərdə işıqlı otağın interyeri də sanki dinlənilən musiqi ruhuna yaxın nikbin tutumludur.

Tablodakı təbiilik, eyni zamanda fiqurların düzülüşünə görə kompozisiyaya ritmli dinamika bəxş etməsi tamaşaçını özünə cəlb edir. Rəsmə ilk nəzər yetirdikdə rənglərin qabarıqlığı hiss edilməsə də, diqqətlə baxdıqda görürük ki, musiqiçilərin geyimlərində qəmli rəng çalarlarından da istifadə olunub.

"Azərbaycan bəstəkarları" süjetli tablosu Azərbaycan rəngkarlığının yaddaqalan nümunələrindən sayılır. Tarixi əhəmiyyət kəsb edən əsərin bu gün dahi bəstəkarın ev-muzeyini bəzəməsi əsərin yüksək dəyər daşımasından irəli gəlir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

## Planet

### Okeanların sayı 6-ya çatacaq

***Yer kürəsində yeni okean yarana bilər. Bu, Afrika qitəsinin iki hissəyə ayrılması ilə baş verəcək. Dənizə çıxışı olmayan ölkələr (məsələn, Zambiya və Uqanda) öz sahil xətlərini əldə edəcək. Alimlərin fikrincə, proses milyonlarla il ərzində baş verəcək.***



Gələcək okeanın tarixi 2005-ci ildə üç tektonik plitənin (Nubiya, Somali və Ərəbistan) sərhədində Şərqi Afrika qırılmasının əmələ gəlməsi ilə başlayıb. Oxşar tektonik sürüşmələr Qırmızı dənizin və Ədən körfəzinin formalaşması zamanı da baş verib.

Hazırda Yer kürəsində 5 okean var. 2000-ci ilədək onların sayı 4 idi: Şimal Buzlu, Atlantik, Sakit və Hind.

Dünya Hidroqrafiya Təşkilatının 2000-ci il qərarına əsasən dünya okeanı beş yerə bölünüb. Həmin qərara əsasən 60 dərəcə cənub paralelindən Antarktidaya qədər olan sular Cənub Okeanına aid edilib. Amma bu qərar həmin vaxt təsdiq edilmədi. Çünki 1953-cü il okean təsnifatında Cənub okeanı anlayışı yoxdur.

Cənub okeanı 21 il sonra, 8 iyun 2021-ci ildə Beynəlxalq Coğrafiya Cəmiyyəti tərəfindən rəsmən tanınmışdır.

***P.ƏFƏNDİ***
***XQ***

## Hava

### Hava yağmursuz və dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən oktyabrın 28-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 15-18°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarınd əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-19°, gündüz 24-29°, dağlarda gecə 6-11°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Ordubadidən gülməcələr

### Nə tökərsən qazanına...

**Məmməd Səid Ordubadi 1907-ci ildə əsərinin çapına icazə almaq üçün onu Mirzə Şərif adlı çar senzoruna təqdim edir. Senzor əsərin ən yaxşı yerlərini bilərəkdən, ya bilməyərəkdən qaralayır. Ədib bundan pərt olsa da, biruzə vermir.**



İllər keçir. M.S.Ordubadi 1920-ci ildə "Əxbar" qəzetində çalışdığı vaxt Mirzə Şərif onun yanına gəlir. "Hindistan müsəlmanları" adlı əsərinin qəzetdə çap olunması üçün ona müraciət edir. M.S.Ordubadi əsəri oxumadan bir kağız parçasını mürəkkəbə batırıb əsərin səhifələrini elə onun yanındaca qaralamağa başlayır. Mirzə Şərif əsəbləşir:

– Ay yoldaş, neyləyirsən?

Ədib sözünü deməyin məqamı çatdığından sakitcə cavab verir:

– Cənab senzor, sizin qaydanızla əsərinizi təshih (redaktə) edirəm.



### Bəs bizim "bədbəxtlər"?

**Məmməd Səid Ordubadi dram teatrına bir pyes verir. Çox gözləyir, görür ki, əsər tamaşaya qoyulmur. Vəziyyəti öyrənmək üçün hərdən teatrın direktoruna zəng edib soruşur ki, bu gün teatrda nə gedir? O da hər dəfə cavab verir ki, "Xoşbəxtlər".**

Bir gün növbəti zəngdən sonra aldığı həmin cavabdan əsəbiləşən yazıçı deyir:

– Qardaş, bəs bizim "Bədbəxtlər"in bəxti nə vaxt açılacaq?

### "Sən o vaxta qalmazsan"

**Belə deyirlər ki, Məmməd Səid Ordubadinin 70 illik yubileyi keçiriləndə dramaturq Sabit Rəhman onun yaradıcılığı və şəxsi keyfiyyətləri ilə bağlı çox səmimi çıxış edir, onu təbrik edəndən sonra deyir:**

– Mirzə, gün o gün olsun ki, 150 illik yubileyinizi də bu zalda böyük təntənə ilə keçirək.

M.S.Ordubadi yerdən S.Rəhmanın nitqini kəsərək, ona bir az ərkyana, bir az da zarafatyana söz atır:

– Gədə, sən o vaxta qalmazsan!

***Z.HÜSEYNLİ***
***XQ***

## Texnologiya yenilikləri

### "X"də yenilik

***İlon Mask "X" ("Twitter") sosial şəbəkəsindəki yeni funksiyasını təqdim edib. Qeyd edək ki, "X" platforması artıq audio və videozəng funksiyasına malikdir. Bundan sonra istifadəçilər audio və videozənglər edə biləcəklər.***

Funksiyanın hazırda iOS cihazlarında mövcud olmasına baxmayaraq, tezliklə Android sistemində də yaradılacağı deyilir. Bu seçimin standart olaraq aktiv ediləcəyi gözlənilir. İstifadəçilər abunə olduqları hesabların sahiblərindən zəngləri qəbul edə biləcəklər.

Xatırladaq ki, dünyanın ən zəngin iş adamı İlon Mask bir neçə ay əvvəl "Twitter" platformasının adını "X" adlandıraraq təqdim etmişdir.

***Ayan NƏCƏF,***
***tələbə-jurnalist***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevə əzizi

**ŞÖHRƏT İSKƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Emin Əfəndiyev və aparat işçiləri Azərbaycan Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının prezidenti Bəkir Yusifova qardaşı

**FAMİL YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***✓ 2019-cu ildə "Şərur MTK" ilə Kərimova Natəvan Tofiq qızı arasında bağlanmış müqavilə itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00